№ 05 (1000) 1-7 fevral 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

1000-ci sayımız

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "İqtisadiyyat" qəzetinin 1000-ci sayı!

Bu, qəzetin ilk nəşrindən 1000-ci saya qədər, bu günə kimi keçdiyi ömür yoludur, milli mətbuatımız tarixində buraxdığı özünəməxsus və təkrarı olmayan izdir. Necə deyərlər, nə az, nə çox 19 il fasiləsiz fəaliyyətdə olmaq, insanlara xidmət etmək, bu illər ərzində ölkə iqtisadiyyatında baş verən mühüm hadisələri, vacib informasiyaları doğru, düzgün, vaxtında oxucu auditoriyasına çatdırmaq kənardan asan görünsə də məsuliyyət və bacarıq tələb edən bir işdir. Məsuliyyəti qədər də, şərəfli və çətindir. **"İqtisadiyyat"ın** dünyaya göz açdığı o dövr müstəqil mətbuatımızın yenicə cücərməyə başlayan rüşeymlərinin göründüyü illər idi. Keçid dövrünü yaşayan iqtisadiyyatımızın qarşısında mühüm vəzifələr, böyük işlər dururdu. Məhz elə o zaman görkəmli iqtisadçı, Azərbaycan iqtisad elminin ən fəal təəssübkeşlərindən biri olan **akademik Ziyad Səmədzadə** professional, peşəkar iqtisadi mətbuat orqanının yaranmasına böyük ehtiyac olduğunu duydu. Təkcə iqtisadçıların deyil, ümumilikdə ziyalı oxucu kütləsinin anlaya biləcəyi və onu düşündürən bir çox məqamlara aydınlıq gətirmək, bir çox sualları cavablandırmaq üçün məhz **"İqtisadiyyat"** qəzetinin yaranmasına qərar verdi. Nəhayət, 1999-cu il martın 27-də qəzetin ilk sayı işıq üzü gördü. İlk günlərdən qəzetin redaksiya heyətinə tanınmış alimlər, ictimai xadimlər, təcrübəli iqtisadçı-pedaqoqlar, bir sözlə, ölkənin aparıcı ziyalıları cəlb olunmuşdu, (Qeyd edim ki, bu ənənəni bu gün də qorumağa çalışırıq).

Bir mətbuat orqanı olaraq "İqtisadiyyat" öz məzmunu, təbliğ etdiyi ideyalar, toxunduğu mövzular ilə çoxlarından seçildi və bu gün də seçilir. Mövcud reallığı nəzərə alıb, mübaliğəsiz və tam əminliklə deyə bilərəm ki, dövlətin və xalqın mənafelərini üstün tutaraq, xalqa ləyaqətlə xidmət etmək başlıca məqsədimiz olaraq qalır. **"İqtisadiyyat"** qəzeti ölkəmizin tanınmış elm və ictimai xadimlərini, xalqımızın formalaşması və inkişafında əvəzsiz xidmətləri olmuş, xalqa örnək ola biləcək insanların həyat və yaradıcılığını yüksək ehtiramla dəfələrlə yad edir, gələcək nəsillərə tanıdır. Qəzetdə, eyni zamanda, iqtisadçı alimlərin müasir elmi araşdırmaları, müxtəlif elmi baxışları, elmi əsaslara söykənən yeni təklif və fikirləri yer almaqdadır. Keçdiyi müddətə nəzər salsaq görərik ki, **"İqtisadiyyat"ın** həyat yolu müxtəlif əlamətdar hadisələr münasibətilə maraqlı jurnalların, xüsusi buraxılışların hazırlanması ilə zəngin olub.

Bu ötən illər ərzində **"İqtisadiyyat"da** məqalələri yer almış müəlliflərin çoxu hazırda böyük elmi və ictimai xadimlərdir, məsul vəzifə sahibləridir. Bu qəzet çoxları üçün elm və həyat məktəbinin pillələri olub, onların əksəriyyəti bu qəzetdə çap olunan yazıları ilə ictimaiyyət arasında tanınıb, inkişaf edib, rəğbət qazanıblar, desəm yanılmaram. Bu, bir məktəbdir. Zəngin elmi irsi və gözəl ənənələri olan böyük məktəb.

Bu gün 1000-ci sayı işıq üzü görən **"İqtisadiyyat"** qəzetinin xüsusi oxucu auditoriyası var. Bəzən düşünürsən ki, müasir dövrdə ölkə mətbuatında qəzet və jurnalların bolluğu, informasiya texnologiyalarının sürətli inkişafı şəraitində öz nüfuzunu, mövqeyini qoruyub saxlamaq o qədər də asan deyil. Bu gün də qəzetimizə olan maraq və tələbat azalmamış, əksinə artmışdır. İndi də hər həftə onun çıxmasını səbirsizliklə gözləyənlər az deyil. O həm peşəkar iqtisadçıların, eləcə də iqtisadi sahədə biliklərini genişləndirmək istəyən hər kəsin dostu və köməkçisinə çevrilməkdədir.

Xalqımızın böyük maarif xadimi **H.Zərdabinin** milli mətbuatımızın tərəqqisi naminə "Əkinçi" ilə yandırdığı ilk işıq bu gün müstəqil Azərbaycan mətbuatının inkişaf yoluna öz şəfəqlərini saçmaqdadır. Bu şəfəqlərdən nur alan **"İqtisadiyyat"** qəzeti tarixi ənənələrə sadiqliyini, dərin köklərə bağlılığını qoruyub saxlayaraq illərdir ki, nəşr olunur. Bu gün müstəqil ölkəmizdə milli mətbuatımıza dövlət tərəfindən xüsusi diqqətin olması qürurverici bir haldır. 2009-cu ildən fəaliyyətə başlamış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun hazırda milli mətbuatımızın inkişafına göstərdiyi böyük diqqət və qayğı bizim qəzetin də aktual və maraqlı yazılarla çıxış etməsinə böyük imkanlar açır. Məhz qarşıya qoyulan məqsəd və tələblər redaksiyaların təkcə maddi vəziyyətinin yaxşılaşdırılmasına yönəlməmişdir. KİVDF tərəfindən verilən layihələrdə müvafiq istiqamətlər üzrə təqdim olunan məqalələr jurnalistlərin öz peşəkarlıq səviyyəsini getdikcə artırmasına və öz üzərində daha məhsuldar işləməsinə xidmət edir, yeni-yeni uğurlara imza atmağa təkan verir. Biz milli mətbuatımızın çiçəklənməsinə xüsusi dəstək verən dövlətimizə və hər həftə **"İqtisadiyyat"ın** çapdan çıxmasını gözləyən abunəçilərimizə, qəzetimizin səhifələrində məqaləleri dərc olunan müəlliflərə redaksiyamız adından böyük minnətdarlığımızı bildirir, gələcək inkişafımıza böyük nikbinliklə baxırıq.

***Qəzetimizin 1000-ci sayı münasibəti ilə başda qəzetin təsisçisi akademik Ziyad Səmədzadəni və onunla bu illər ərzində çiyin-çiyinə çalışmış bütün redaksiya üzvlərini, qəzetin hər sayının işıq üzü görməsində əməyi olan işçilərimizi təbrik edir, daha böyük uğurlar arzulayıram.***



**Baş redaktor**
**Aytən Səmədzadə**

## "Şahdağ" qış-yay turizm kompleksində görüləcək işlər davam etdirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Qusarda "Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub.

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov Prezident İlham Əliyevə "Şahdağ" qış-yay turizm kompleksinin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat vermişdir. Qeyd edilmişdir ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaq.

Həmçinin, dövlətimizin başçısına məlumat verilmişdir ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada bouling, tennis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcək.

Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq. Yay mövsümündə turistlər bu göldə həm üzəcək, həm də qayıqlarla səyahət edəcəklər. Qış mövsümündə isə bu göldən qaryaratma üçün ehtiyat mənbəyi kimi istifadə olunacaq.

İkinci mərhələdə görülməsi planlaşdırılan işlərə bu ilin yaz aylarından başlanılacaq. Bunun üçün indidən hazırlıq işləri görülür.

Dövlətimizin başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verilmiş, bildirilmişdir ki, kompleksin ərazisindən keçən Qusar-Ləzə yolu onun kənarından inşa olunacaq. Bu da imkan verəcək ki, yuxarı kəndlərin sakinləri kompleksin ərazisinə daxil olmadan hərəkət etsinlər. Qalan işlərin ilin sonuna qədər tamamlanması nəzərdə tutulur. Kompleksin üçüncü mərhələsi ilə bağlı layihələndirmə işləri aparılır.

Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini vermişdir.

## Məqsədimiz Azərbaycanın inkişafını sürətləndirmək, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır

Yanvarın 29-da Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söyləmişdir. O, demişdir:

- Bütövlükdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası çox uğurla gedir. Üçüncü proqram da uğurla icra edilir, qarşımızda duran bütün vəzifələr icra edilir və artıqlaması ilə icra edilir.

Deməliyəm ki, birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Həyat bunu əyani şəkildə göstərir. 2004-cü ilin əvvəllərində qəbul edilmiş proqram, demək olar ki, Azərbaycan regionlarında dönüş yaratdı. Azərbaycan regionlarının sürətli inkişafı məhz birinci proqramın icrası ilə bağlı idi.

Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artdı, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilir. Sabitliyin mənbəyi isə Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir.

Sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir.

Ölkəmizdə köklü iqtisadi islahatlar icra edilmişdir. Bölgələrdə infrastruktur layihələri icra edilmişdir. İnfrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan verdi, eyni zamanda, bizim nəhəng transmilli infrastruktur layihələrimiz Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişdi.

Ancaq, eyni zamanda, gündəlik fəaliyyətimizdə Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində əməli-praktiki addımlar atılmışdır. Siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir. Son 14 il ərzində regional inkişaf proqramlarının icrasının nəticələri də göz qabağındadır. Ölkəmizdə 30 elektrik stansiyası tikilmişdir. Bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Bildirməliyəm ki, 2004-cü ilə qədər Azərbaycanda bütün dövrlər ərzində 9 elektrik stansiyası tikilmişdir. Ancaq onların generasiya gücü böyük idi, onların potensialı 3900 meqavatdır. Biz 14 il ərzində generasiya gücümüzün 2500 meqavat artırılmasına nail olduq. Bu il bu rəqəm 2900 meqavata çatacaq.

Beləliklə, əgər biz 2004-cü ildə elektrik enerjisini idxal edirdiksə və buna görə valyuta ödəyirdiksə, hazırda biz nəinki özümüzü tam şəkildə təmin edirik, eyni zamanda, elektrik enerjisini ixrac etməyə başlamışıq. Bu məqsədlə əlbəttə ki, həm ölkə ərazisində, həm də üç qonşu ölkə - Rusiya, İran və Gürcüstan ilə elektrik xətlərimizi birləşdirmişik. Eyni zamanda, Gürcüstan vasitəsilə Türkiyəyə də elektrik enerjisinin ixracı üçün yaxşı imkanlar mövcuddur.

Energetika hər bir iqtisadiyyatın bel sütunudur, təməlidir. Ona görə biz, ilk növbədə, bu məsələlərlə məşğul olmağa başlamışıq. Bu gün ölkəmizin uğurlu, sürətli inkişafı bu elektrik stansiyalarının mövcud olması ilə sıx bağlıdır. Biz indi sənaye istehsalımızı, iqtisadi gücümüzü artırırıq.

2004-cü ildə Azərbaycanda qazlaşdırmanın səviyyəsi 51 faiz idi. Bölgələrdə, demək olar ki, qaz yox idi, şəhərlərdə də yox idi, kəndlərdə ümumiyyətlə yox idi. **Hazırda Azərbaycanda qazlaşdırma 93 faizə çatıb. Bütün şəhərlərimiz qazla 100 faiz təmin edilib.**

İçməli su və kanalizasiya problemləri insanları narahat edən çox ciddi problemlər idi. Düzdür, bu sahənin bilavasitə iqtisadi və sənaye inkişafımıza o qədər də böyük təsiri olmasa da, bu, çox ciddi sosial məsələdir. Ona görə biz bu məsələ ilə də ciddi məşğul olmağa başlamışıq.

2004-cü ildə ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faiz idi,

## Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq genişlənməkdədir

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin mətbuat xidmətindən bildirilib ki, bu fikirləri Azərbaycanda səfərdə olan Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (AXDG) sədri Rauf Vəliyevlə görüşündə deyib.

Görüşdə "AXDG" QSC-nin sədri Rauf Vəliyev ölkəmizdə reallaşdırılan nəqliyyat-logistika layihələri və gəmiçiliyin fəaliyyəti haqqında qonaqlara ətraflı məlumat verib. O bildirib ki, bu gün Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Xəzərdə Avropa və Asiya arasında ən qısa körpü rolunu oynayır. Hazırda gəmiçilik Xəzərdə yeganə bərə operatorudur. Donanmanın yenilənməsinin əsas məqsədlərindən biri olduğunu



diqqətə çatdıran "AXDG" QSC-nin sədri ölkə başçısı İlham Əliyevin tapşırığına əsasən böyük istehsal gücünə malik Bakı Gəmiqayırma Zavodunda gəmiçilik üçün hazırda 2 ədəd unikal Ro-Pax gəmi-bərəsinin və iki tankerin tikildiyini vurğulayıb. Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey Azərbaycanın nəqliyyat-logistik imkanlarının genişlənməsini, yükdaşımalarda gəmiçiliyin fəaliyyətini, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsini, Azərbaycanın nəqliyyat-logistik qovşağına çevrilməsi istiqamətində reallaşdırılan digər layihələri yüksək qiymətləndirib. O, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirib.

Görüşdə, həmçinin gəmiçiliyin tranzit xidmətləri haqqında qonaqlara məlumat verilib və şirkətin fəaliyyətini əks etdirən təqdimat keçirilib.

hazırda bu, 67 faizə çatıb, Bakı şəhərində 81, bölgələrdə isə 43 faizdir. Ona görə bu sahəyə bu il və gələcək illərdə böyük sərmayə qoyuluşu nəzərdə tutulur ki, biz bu məsələni də həll edək. Oğuz-Qəbələ-Bakı kimi nəhəng su kəməri, - bu da tarixi hadisədir, - inşa edilib. Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu tikilibdir. Bu gün bu qurğudan çıxan sular keyfiyyətinə görə Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verir.

Kənd təsərrüfatının inkişafı üçün böyük meliorativ tədbirlər görüldü. **Son 14 il ərzində dörd su anbarı tikilmişdir - Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarları.** Bu, nəhəng tarixi infrastruktur layihələridir. Bu anbarlar, çəkilmiş və çəkilən kanallar on minlərlə hektar əkin sahəsini suvarmaq üçün həlledici rol oynayır. Meliorativ tədbirlər kənd təsərrüfatının inkişafına bilavasitə təsir edən infrastruktur layihələridir. Bu sahəyə qoyulan böyük vəsait, eyni zamanda, sahibkarlığa dövlət tərəfindən göstərilən növbəti dəstəyin təzahürüdür.

Biz hazırda yeni layihələr üzərində işləyirik. Keçən il 100 min hektardan çox suvarılmayan torpaqlara su xətləri, kanallar çəkilmişdir. Bu il də hədəf 100 min hektardır.

**Avtomobil yollarının tikintisi infrastruktur layihələri arasında önəmli yer tutan sahədir. Bu, həm iqtisadi, həm sosial sahədir. Rahat, hamar yollar insanlara rahatlıq gətirir.** Hazırda kənd yollarının tikintisi geniş vüsət alıb. Beləliklə, yol infrastrukturu, sadəcə olaraq, sosial layihə deyil. Son 14 il ərzində 12 min 300 kilometr yol çəkilmişdir. Bu il bu rəqəm təqribən 15 min kilometrə çatacaq. Son 14 il ərzində 443 körpü tikilmişdir.

Beləliklə, ölkə iqtisadiyyatının, regionların inkişafı üçün bu əsas infrastruktur layihələri icra edildi. **Onu da deməliyəm ki, əgər biz 2004-cü ildə qəbul edilmiş birinci proqrama nəzər salsaq görərik ki, görülən bu işlərin böyük hissəsi orada əks olunmamışdır. Çünki biz bu proqrama və ondan sonrakı ikinci və üçüncü proqramlara əlavələr etdik.**

Əlbəttə ki, bizim məqsədimiz bu proqramları icra etməkdir. Ancaq **əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik.** Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq, abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq.

On dörd il ərzində iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir. İqtisadiyyat 14 il ərzində 3,2 dəfə artmışdır. Hesab edirəm ki, bu, dünya miqyasında rekord göstəricidir. Qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə artmışdır. Bu, onu göstərir ki, bizim iqtisadi inkişafımız, sadəcə olaraq, neftin, qazın istehsalı ilə bağlı deyil. Bizim iqtisadi inkişafımız çoxşaxəlidir. Ona görə qeyri-neft sektorunun 2,8 dəfə artması aparılan islahatların nəticəsidir. Sənaye sahəsində 2,6 dəfə artım var, kənd təsərrüfatında 1,7 dəfə. Qeyri-neft ixracımız 4,1 dəfə artmışdır.

2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi. Bax, biz böyük regional inkişaf proqramına bu rəqəmlə start verdik. O vaxt mən yaxşı bilirdim ki, bu proqram çox böyük vəsait tələb edəcək. Bizim maliyyə imkanlarımız o qədər də geniş deyildi. Cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarımız var idi. Buna baxmayaraq, biz birinci regional inkişaf proqramına böyük vəsait ayırdıq. Yəni, bu, bir daha göstərir ki, Azərbaycan regionlarının inkişafı, bölgələrdə yaşayan vətəndaşların güzəranı, həyat səviyyəsi bizim üçün həmişə prioritet olub.

Bu gün isə bizim valyuta ehtiyatlarımız 42 milyard dollara bərabərdir. On dörd il ərzində biz valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq. Həm böyük investisiya layihələrinə, infrastruktur layihələrinə, neft-qaz kəmərlərinin tikintisinə vəsait qoymuşuq. Bunlar çox vəsait aparan layihələrdir. Eyni zamanda, öz valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq və adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bizim valyuta ehtiyatlarımız ölkəmizin ümumi daxili məhsuluna bərabərdir.

Keçən il valyuta ehtiyatlarımızın artırılması istiqamətində çox ciddi addımlar atılmışdır. Baxmayaraq ki, keçən il büdcəmiz də builki kimi deyildi, bundan az idi, eyni zamanda, neftin qiyməti də hələ aşağı səviyyədə idi, biz düzgün siyasət, maliyyə sahəsində nizam-intizamı gücləndirmək nəticəsində valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırmışıq. Əminəm ki, bu il valyuta ehtiyatlarımız əhəmiyyətli dərəcədə artacaq.

**On dörd il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur.** Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər arasındadır. Xarici sərmayənin qoyuluşu, əlbəttə ki, hər bir ölkə üçün ən vacib amillərdən biridir.

On dörd il ərzində əhalimiz 1,5 milyon nəfər artıb. Bu, çox gözəl göstəricidir. Bu, onu göstərir ki, əhalimiz artır, ölkəmiz güclənir. Biz 14 il ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaratmışıq ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Ona görə iş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. Görülən işlər nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Biz birinci proqramın icrasına başlayanda yoxsulluğun səviyyəsi 50 faiz idi, indi isə 5,4 faizdir. Bax, budur, bizim əsas iqtisadi göstəricilərimiz. Eyni zamanda, sosial sahəyə çox böyük diqqət göstərilmişdir. Maaşlar 14 il ərzində beş dəfədən çox, pensiyalar səkkiz dəfədən çox artıb və bir çox önəmli sosial layihələr icra edilib.

Biz sosial infrastrukturla bağlı böyük işlər görmüşük, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud təmir edilmişdir, 43 Olimpiya İdman Kompleksi inşa olunmuşdur. Bu da böyük vəsait tələb edən layihələrdir. Ancaq bu layihələr sosialyönümlü layihələrdir, ona görə investisiya proqramımızda daim bu layihələr var. Bu ilin investisiya proqramına əsasən də kifayət qədər sosial layihələr icra ediləcəkdir.

**Biznesin inkişafı üçün şəraitin yaradılması istiqamətində ciddi addımlar atılmışdır. Sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir.** Nəzərə almalıyıq ki, 14 ilin əsas hissəsində manatın məzənnəsi dollara nisbətən daha da yüksək idi. Ona görə bu iki milyard manat ən azı iki milyard dollar deməkdir. Güzəştli şərtlərlə verilən bu kreditlər sahibkarlar tərəfindən yüksək qiymətləndirildi, onlar bu kreditlərdən istifadə edərək yeni müəssisələr, iş yerləri yaratdılar və o vəsaiti qaytararaq yenə də imkan verirlər ki, biz bu vəsaiti digər sahibkarlara güzəştli şərtlərlə verək, necə ki, bu il də bu, nəzərdə tutulur. Son illər ərzində ictimai xidmətlər sahəsində inqilabi dönüş baş verdi. "ASAN xidmət" mərkəzlərinin yaradılması bu sahədə inqilabi dönüş etdi. Son beş il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilmişdir və "ASAN xidmət" mərkəzlərini bəyənmə əmsalı 100 faizə yaxındır. Rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə, o cümlədən sistem xarakterli tədbirlər sahəsində aparılır. Biz bütün bu işlərlə paralel olaraq, ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək üçün böyük addımlar atmışıq. Azərbaycan kosmik dövlətə çevrilib. Bunu hələ bir neçə il bundan əvvəl təsəvvür etmək belə çətin idi. Hazırda bizim iki peykimiz var - telekommunikasiya və əraziləri müşahidə peykləri. Üçüncü peyk bu il orbitə buraxılacaq. Azərbaycan dünyanın məhdud olan kosmik klubunun üzvüdür. Bu, texnologiyadır, təhsildir, biznesdir və inkişafdır.

Əlbəttə ki, ölkəmizdə aparılan və tərəfimizdən irəli sürülmüş nəhəng nəqliyyat və energetika layihələri həm böyük vəsait tələb edirdi, eyni zamanda, ölkəmizin uzunmüddətli uğurlu inkişafını şərtləndirən layihələrdir.

Nəqliyyat sahəsində. Ölkəmizdə yeddi aeroport tikildi. Onlardan altısı beynəlxalq aeroportdur. Birinci proqram qəbul olunana qədər bizim bir beynəlxalq aeroportumuz var idi – Bakı aeroportu. Digər aeroportlar yerli əhəmiyyətli aeroportlar idi. Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala - altı beynəlxalq aeroport, bir də Yevlax aeroportu yenidən quruldu. Bu gün onlar fəaliyyət göstərir və beynəlxalq reyslər təşkil olunur. Bu, ölkəmizə turistlərin gəlişini şərtləndirir, insanlara rahatlıq verir.

Azərbaycanda böyük gəmiqayırma zavodu inşa edildi. Bu gün biz bütün növ gəmiləri istehsal edə bilərik. Artıq gəmiqayırma zavodu önəmli, böyük sifarişlər icra edir. Ələt Dəniz Ticarət Limanı bu il istifadəyə verilməlidir. Bu, Xəzər hövzəsində ən böyük beynəlxalq dəniz ticarət limanıdır. Bu liman olmadan biz nəqliyyat dəhlizinə, nəqliyyat mərkəzinə çevrilə bilməzdik. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi tarixi hadisədir. Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətdir. Bu dəmir yolu, - bu barədə çox danışılıb, ictimaiyyət də əhəmiyyətini bilir, - həqiqətən, bölgədə, Avrasiyada nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində bəlkə də son illərdə ən önəmli layihədir. Bunun bizim üçün də çox böyük əhəmiyyəti var. Artıq bir-iki aydır ki, Asiyadan, Avropadan müxtəlif istiqamətlərə gedən yüklər gəlib Azərbaycan ərazisindən keçir.




Biz Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı öz ərazimizdə olan bütün məsələləri qısa müddət ərzində həll etdik. Beləliklə, beynəlxalq əməkdaşlığa gözəl şərait yaratmışıq. Dəmir yolunun yenidən qurulması istiqamətində işlər görülüb, görüləcək və biz bu barədə danışacağıq.

Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin tikintisi iqtisadiyyata böyük valyuta axınını təmin edir. **Bakı-Tbilisi-Ceyhan on ildən çoxdur ki, fəaliyyət göstərir. On ildən çoxdur ki, qaz kəmərimiz qazımızı Ərzuruma qədər nəql edir. Əgər bu layihələr olmasaydı, Bakı-Tbilisi-Qars da olmazdı. Əgər bu, olmasaydı, "Şahdəniz-2" də olmazdı. Cənub Qaz Dəhlizi – dəyəri 40 milyard dollardan çox olan layihə də olmazdı.**

**Ona görə bütün bu layihələr xalq qarşısında tarixi xidmətlərdir. Biz fəxr edirik ki, bunları icra etmişik.** Bu layihələr, eyni zamanda, uzunmüddətli inkişafımıza şərait yaradır. Biz indi 42 milyard dollar valyuta ehtiyatlarımıza malikik. Bunları nəyin hesabına qazanmışıq? Enerji resurslarının ixracı nəticəsində. Bakı-Tbilisi-Ceyhan tikilməsəydi, bu da olmayacaqdı.

Görülən bütün işlər və əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq.

**X X X**

Konfransda Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Naxçıvan Muxtar Respublikasındakı "Nəqşicahan Holdinq" şirkətlər qrupunun "Duzdağ" Müalicəvi İstirahət Mərkəzinin direktoru Novruz Novruzov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Neftçala Sənaye Məhəlləsinin direktoru Nəriman Xəlilov, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Ağdam rayonundakı Heyvandarlıq Kompleksinin direktoru Fuad Əyyubzadə, Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Saatlı rayonundakı "Aqro-Az" Məhdud Məsuliyyətli Cəmiyyətinin (pambıq istehsalı və emalı) rəhbəri Vahid Hüseynov və Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev çıxış etmişlər.

**Prezident İlham Əliyevin yekun nitqi**

- Qeyd etdiyim kimi, bu il üçüncü Dövlət Proqramı başa çatır. Bu il görüləcək işlər haqqında tapşırıqlar verəcəyəm. Bütün bu tapşırıqlar ilin sonuna qədər yerinə yetirilməlidir. Yenə də həmişə olduğu kimi, ilk növbədə, bu il infrastruktur layihələri ilə bağlı görüləcək işlər aşağıdakılardır.

Qazlaşdırma bu ilin sonuna qədər 95 faizə çatdırılmalıdır. Bu, çox yüksək göstəricidir. Hesab edirəm ki, bu göstəriciyə görə də biz dünya miqyasında qabaqcıl yerlərdəyik. Relyefimizi nəzərə alsaq, bir daha görərik ki, bu, nə qədər mürəkkəb işdir. Ona görə bu gün də qazlaşdırmanın səviyyəsi - 93 faiz yaxşı göstəricidir. Ancaq bilməliyik, hələ də bir çox kəndlər var ki, oraya qaz xətləri çəkilməyib. Dövlət büdcəsində bu məqsədlər üçün bu il Azərbaycan Dövlət Neft Şirkətinə 100 milyon manata yaxın vəsait nəzərdə tutulur. Azərbaycan Dövlət Neft Şirkəti bu işləri qısa müddət ərzində görməlidir və qazlaşdırma 95 faizə çatmalıdır.

**Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin edir və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verir.** İndi bizdə elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur və bu il yeni böyük elektrik stansiyası işə düşməlidir. Bu stansiya artıq bir neçə ildir ki, inşa edilir, "Şimal-2" elektrik stansiyasının açılışı bu il nəzərdə tutulur. Stansiyanın generasiya gücü 400 meqavatdır. Çox böyük stansiyadır, bizə əlavə potensial verəcək və əlbəttə ki, ilk növbədə, ixrac imkanlarımızı artıracaq. Çünki ölkə daxilində elektrik enerjisi ilə problemlər öz həllini tapıb, bizim əlavə ixrac imkanlarımız olacaqdır. Bununla belə, bu il bölgələrdə yeni yarımstansiyaların tikilməsi, elektrik xətlərinin çəkilməsi, onların və transformatorların dəyişdirilməsi, yəni elektrik təsərrüfatının yenidən qurulması, müasirləşdirilməsi istiqamətində kifayət qədər böyük investisiya layihələri icra ediləcəkdir.

İçməli su və kanalizasiya layihələri ilə bağlı işlər davam etdiriləcək. Bu il ən azı üç şəhərin içməli su və kanalizasiya problemi tam həll olunacaqdır. Mingəçevir, Qəbələ və Ağdaş şəhərlərində işlərin, layihələrin tamamlanması nəzərdə tutulur. Bununla paralel olaraq, daha 20 şəhərdə içməli su və kanalizasiya layihələri icra ediləcək. İl ərzində baxarıq, bəlkə, bu şəhərlər arasında da bu il başa çatacaq layihələr ola bilər. Bu il də bu layihələrin icrası nəzərdə tutulur və ən azı 300 subartezian quyusu qazılmalıdır. Vətəndaşlar bundan həm məişətdə, həm də kənd təsərrüfatında istifadə edirlər.

Meliorasiya ilə bağlı. Bu il ən azı 100 min hektar suvarılmayan torpaqlara su verilməlidir. **Beləliklə, biz 2017-2018-ci illərdə 200 mindən çox hektara suyun təminatını təşkil edəcəyik. Bir neçə önəmli kanal layihələri icra ediləcəkdir. Dövlət İnvestisiya Proqramında kifayət qədər vəsait nəzərdə tutulur. Dövlət İnvestisiya Proqramında bu məsələ ilə bağlı olan bütün layihələr ilin sonuna qədər icra edilməlidir.**

Bu il 2300 kilometr avtomobil yolları - həm magistral, şəhərlərarası, eyni zamanda, kənd yolları çəkiləcək. Keçən il şərti olaraq "40 yol" adlandırılan layihə çərçivəsində 500-dən çox kəndin yolu tikildi, abadlaşdırıldı. Bu il isə minimum 600 kəndin yolu tikilməlidir. Bu məqsədlə kifayət qədər vəsait nəzərdə tutulubdur. Eyni zamanda, bu il biz yeni magistral yolun tikintisi ilə ciddi məşğul olacağıq. Sumqayıt şəhərindən Rusiya sərhədinə qədər yeni yolun çəkilişi də nəzərdə tutulmuşdur. Bu il sosial obyektlərin tikintisi ilə bağlı aşağıdakı tədbirlər nəzərdə tutulur.

**Altı şəhərdə** - Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan və Goranboy şəhərlərində yeni rayon mərkəzi xəstəxanalarının tikintisi başa çatmalıdır. Eyni zamanda, Füzuli rayonunda və Qəbələ şəhərində rayon mərkəzi xəstəxanalarının tikintisi aparılacaqdır ki, bu xəstəxanalar 2019-cu ildə istifadəyə verilsin. Ancaq onu da qeyd etməliyəm ki, həm Füzuli, həm də Qəbələ rayonlarında vaxtilə müasir diaqnostika mərkəzləri istifadəyə verilib. Yəni, orada keyfiyyətli tibbi xidmət almaq üçün imkanlar var, sadəcə olaraq, yeni xəstəxanaların tikintisi təmin ediləcəkdir.

Keçən il 5 milyondan çox vətəndaş pulsuz tibbi müayinədən keçib. Bu da bildiyimə görə, dünya praktikasında yeganə bir hadisədir ki, biz bunu edirik. Əlbəttə ki, bu il də vətəndaşlar bu gözəl imkanlardan istifadə etməlidirlər və artıq edirlər. Təhsil sahəsində. **Bu il 137 modul tipli məktəb tikiləcək. Kəndlərdə 100-dən çox məktəb qazlaşdırılacaq, yüzlərlə məktəbdə təmir işləri aparılacaq. Bakı şəhərində isə 12 məktəb əsaslı təmir ediləcək.** Beləliklə, biz Bakı şəhərində məktəb tikintisi və təmiri problemlərinin həllinə nail olacağıq.

Dörd şəhərdə Olimpiya İdman mərkəzləri tikilməlidir. Onlardan ikisi bu il, ikisi isə gələn il istifadəyə veriləcəkdir.

Məcburi köçkünlər üçün yeni binaların, evlərin tikintisi davam etdiriləcək. Bu məsələyə çox böyük diqqət göstərilir. Bu günə qədər 265 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Keçən il biz Cocuq Mərcanlı kəndinin bərpasını təmin etdik. Bu, tarixi hadisədir. Eyni zamanda, Şıxarx qəsəbəsində böyük şəhərcik tikilib - 1170 ailəlik, Cocuq Mərcanlıda isə 150 ailəlik. Bu layihələrin xüsusi əhəmiyyəti var. Çünki bu layihələr vaxtilə işğal edilmiş və Ordumuz tərəfindən işğaldan azad olunmuş torpaqlarda icra edilibdir. Bu layihələrin icrası, eyni zamanda, onu göstərir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və dağıdılmış bu ərazilərdə yeni şəhərlər, qəsəbələr, kəndlər, məktəblər, yaşayış binaları, bütün infrastruktur tikiləcək. Cocuq Mərcanlının və Şıxarxın timsalında biz dövlətimizin, xalqımızın iradəsini göstəririk. Bir daha göstəririk ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq və Azərbaycan köçkünləri öz doğma torpaqlarına getməyə hazırdırlar.

Mən giriş sözümdə iş yerlərinin yaradılması ilə bağlı fikirlərimi bildirdim. Bu, daimi proses olmalıdır. Əhalinin artımı daim yeni iş yerlərinin yaradılmasını tələb edir. Hesab edirəm ki, keçən il bu istiqamətdə rekord nəticə əldə edilmiş, 177 min daimi iş yeri açılmışdır. Bu il də əlbəttə ki, bu istiqamətdə işlər görüləcək.

Bu il biz özünüməşğulluq proqramını daha da böyük həcmdə icra edəcəyik. Bu proqramı biz demək olar ki, keçən il icra etməyə başlamışıq. İlkin nəticələr müsbətdir. Bu il isə atılan addımlar, aparılan islahatlar nəticəsində kifayət qədər böyük - 30 milyon manatdan çox vəsait olacaq və 6 min, bəlkə də 7 min ailə özünüməşğulluq proqramına cəlb ediləcək. Bu, həm iqtisadi, həm də psixoloji cəhətdən çox gözəl layihədir, gözəl təşəbbüsdür. Əgər biz hər il 6-7 min ailə üçün belə şərait yaratsaq, onda sosial yardıma heç kimin ehtiyacı olmayacaq.

**Bu il biz, eyni zamanda, "Ailə Biznesinə Asan Dəstək" layihəsinin sürətli inkişafını görəcəyik. "ABAD" mərkəzlər artıq yaradılır və mən, ümumiyyətlə, bu şəraitlə, imkanlarla tanış olmuşam.** Bu da çox gözəl təşəbbüsdür. Bu, fermerlərə, ailə təsərrüfatlarına imkan verir ki, öz məhsullarını müasir formada yerli və xarici bazarlara çıxarsınlar. Yenə də dövlət bütün öhdəliyi, bütün yükü öz üzərinə götürür. Fermerlərə, ailələrə konteynerlər, metodik tövsiyələr verilir, şərait yaradılır ki, onlar öz həyatlarını daha da yaxşılaşdıra bilsinlər. Bu günə qədər bu imkanlardan yararlanan fermerlər yaxşı məhsul istehsal edirlər. Bal, mürəbbə, ət və süd məhsulları, suvenirlər istehsal olunur. İndi ölkəmizə gələn turistlərin sayı kəskin şəkildə artır. Ona görə hər bir turist maraqlıdır ki, hansısa bir suvenir alsın. Əfsuslar olsun ki, bizdə bu günə qədər şəhərdə satılan, yəni şəhərimizi, ölkəmizi əks etdirən bu suvenirlər xaricdə istehsal edilir. Ona görə də bu, böyük bir qüsur, böyük bir boşluq idi. İndi çalışmalıyıq ki, bu suvenirlər Azərbaycanda istehsal olunsun və "ABAD" bu sahədə də öz işini görür.

"ABAD"-la bağlı bildirməliyəm ki, dövlət, əlbəttə ki, öz üzərinə bu funksiyanı götürüb. Amma hesab edirəm ki, böyük biznes şirkətləri bu sahədə daha fəal olmalıdırlar.

Bu il ən azı keçən ilin səviyyəsində sərmayə nəzərdə tutulur. Eyni zamanda, bölgələrdə sərmayə qoyuluşu, əlbəttə ki, regional inkişaf proqramlarının icrası üçün çox önəmlidir. Dövlət öz rolunu oynayıb və oynayacaq. Əgər dövlət sərmayəsi olmasaydı, bölgələrdə heç bir inkişafdan söhbət gedə bilməzdi. İndi isə vaxt gəlib çatıb ki, yerli icra orqanları bu işlərdə daha da fəal çalışsınlar və sərmayəni cəlb etsinlər.

Bu gün bölgələrə sərmayə qoyan daha çox yerli iş adamlarıdır. Ona görə yerli icra orqanları bu işlərdə daha fəal olmalıdırlar. Onlar iş adamlarını cəlb etməlidirlər ki, gəlib sərmayə qoysunlar.

Mən keçən il cəlb edilmiş sərmayələrlə bağlı birinci yerlərdə olan rayonları qeyd etmək istəyirəm. Həm keçən il qoyulmuş sərmayənin, həm də bu investisiya layihələrinin ümumi həcmi ilə bağlı. Beləliklə, keçən il sərmayə qoyuluşuna görə ilk onluğa aşağıdakı rayonlar daxil edilib - Salyan, Qəbələ, Qazax, Lənkəran, Abşeron, Ağstafa, Sumqayıt, Xaçmaz, Gəncə, İsmayıllı. Keçən il ən çox investisiyalar bu rayonlara qoyulub. Ancaq ümumi həcminə görə 100 milyon manatdan çox olan sərmayə layihələri beş rayonda icra ediləcək. Onların arasında birinci yerdə Abşeron rayonudur. Qoyulacaq sərmayənin həcmi 250 milyon manat səviyyəsində gözlənilir. İkinci yerdə Sumqayıt şəhəridir, 186 milyon manat. Üçüncü yerdə Saatlı rayonudur, 152 milyon manat. Dördüncü yerdə Salyan rayonudur, 126 milyon manat. Beşinci yerdə Qəbələ rayonudur, 116 milyon manat. Yəni, həcmi 100 milyon manatdan artıq olan layihələr rayon üçün, əlbəttə ki, çox yaxşı rəqəmdir. Yüz milyon manata bir qədər çatmayan, - amma mən onu da qeyd etməliyəm, - Gəncə şəhəridir, 98 milyon manat investisiya qoyuluşu nəzərdə tutulur. Yəni, bunlar çox böyük rəqəmdir, çox yaxşı göstəricidir. İndi məndəki bu cədvəldə bütün rayonlara qoyulan və qoyulacaq sərmayənin həcmi var. Bu, geniş, ciddi təhlil ediləcək. Ancaq deməliyəm ki, bu proses artıq başladı. Burada həm dövlət qurumları, həm də iş adamları və yerli icra orqanları birgə işləyirlər və birgə işləməlidirlər.

Bu il nəqliyyatla, dəmir yolu nəqliyyatı ilə bağlı bir neçə önəmli layihə icra ediləcək. Qeyd etdiyim kimi, Bakı-Tbilisi-Qars dəmir yolu işə düşüb və artıq fəaliyyətə başlayır. Maraq da çox böyükdür, həm Davos Dünya İqtisadi Forumu çərçivəsində, həm digər forumlarda bu

məsələ ciddi şəkildə müzakirə edilir. Demək olar ki, bu, dünyanın gündəliyində duran infrastruktur-nəqliyyat layihələri arasında xüsusi yer tutan layihədir. İndi biz çalışmalıyıq ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti üçün lazımi tədbirlər görülsün və əlbəttə ki, görüləcəkdir.

Bu il Bakı-Böyük Kəsik dəmir yolunun yenidən qurulması istiqamətində işlər görüləcək. Təbii ki, bu yol fəaliyyətdədir. Ancaq biz bu yolu modernləşdirməliyik ki, sürət artsın. Çünki biz Bakı-Tbilisi-Qars yolu ilə göndəriləcək çox böyük yüklər gözləyirik. Ona görə qatarların sürəti yüksək olmalıdır və eyni zamanda, bu, vətəndaşlar üçün də çox önəmlidir.

Qeyd etdiyim kimi, Azərbaycan öz ərazisində Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işləri görüb. Ancaq növbəti illərdə biz bu xətti də ölkə ərazisində tədricən yenidən qurmalıyıq. Çünki bu istiqamət üzrə də böyük yüklər gözlənilir. Mövcud dəmir yolu infrastrukturu bu yükləri ötürə bilməyəcək. Ona görə builki investisiya proqramında Bakı-Yalama və Bakı-Astara dəmir yollarının modernləşdirilməsi və yenidən qurulması, təmiri, çəkilişi nəzərdə tutulub, vəsait də ayrılıb və işlər dərhal başlamalıdır.

Qeyd etməliyəm ki, bu il, eyni zamanda, Bakı şəhərətrafı dairəvi dəmir yolunun çəkilməsi nəzərdə tutulur. Bu da şəhərin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün çox önəmli layihədir.

Turizm sektorunun inkişafını nəzərə alaraq, **bu il Qəbələ şəhərinə dəmir yolunun çəkilişi başlanmalıdır. Çünki Qəbələ Bakıdan sonra ölkəmizin ikinci turizm mərkəzidir və beynəlxalq turizm mərkəzinə çevrilir.** Vaxtilə biz Qəbələdə beynəlxalq aeroport inşa etdik. Bu gün bu beynəlxalq aeroport müxtəlif ölkələrə uçuşları təşkil etmək imkanı yaradır. Əgər onu vaxtında tikməsəydik, bəlkə Qəbələyə bu qədər turist gəlməzdi. **Bakı-Yalama yolunun tikintisi ilə paralel olaraq, Qusar rayonuna da dəmir yolunun çəkilişi planlarımızda var.**

Ələt Dəniz Ticarət Limanının tikintisi bu il başa çatmalıdır. Beləliklə, 15 milyon ton yükü aşıra biləcək Xəzər dənizinin ən böyük ticarət limanı fəaliyyətə başlayacaq. Yüz min konteynerin daşınması nəzərdə tutulur. Baxarıq, əgər buna daha böyük tələbat olarsa, hesab edirəm ki, biz Ələt limanını qısa müddət ərzində genişləndirə bilərik. Bunun üçün bütün imkanlar var, texniki imkanlarımız da kifayət qədər böyükdür. Bu da tarixi layihədir. Çünki Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. Adətən, belə ölkələr nəqliyyat mərkəzi rolunu oynaya bilmir. Ancaq buna baxmayaraq, açıq dənizlərə, okeanlara çıxışımız olmaya-olmaya biz nəinki regionun, Avrasiyanın nəqliyyat mərkəzlərinin birinə çevrilirik və Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Bu dəhlizlər onlarla ölkəni bir-birinə bağlayır, onlarla ölkə üçün şərait yaradır. Bu ölkələr arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihənin fəal iştirakçısı və üzvüdür. Bax, qapalı şəraitdə, açıq dənizə çıxışı olmayan ölkədə belə layihələri icra etmək tarixi xidmətimizdir.

**Bu il üç "ASAN xidmət" mərkəzi açılmalıdır - Mingəçevir, Şəki, İmişli şəhərlərində. Beləliklə, bu mərkəzlərin sayı 15-ə çatacaq.** Beş mərkəzin tikintisi isə bu il başlanmalıdır. Onların açılışı gələn il nəzərdə tutulur. Beləliklə, gələn il bizim 20 "ASAN xidmət" mərkəzimiz olacaqdır.

Artıq keçən il Mənzil İnşaatı Dövlət Agentliyinin – MİDA-nın ikinci layihəsinə Hövsanda start verilib. İşlər gedəcək, orada on min insan sosial evlərlə təmin ediləcək. Yasamal layihəsi icra edilir. Artıq bu il Yasamal layihəsinin evlərinin bir hissəsi vətəndaşlara təqdim ediləcəkdir.

Hesab edirəm ki, turizmin inkişafı ilə bağlı bölgələrdə yeni otellərin tikilməsinə ehtiyac var. Bunu, əlbəttə ki, özəl sektor etməlidir. Özəl sektor əlbəttə ki, hər şeyi yaxşı bilir. Bilir ki, haraya, nə vaxt sərmayə qoymaq olar. Ancaq rəqəmlər də kifayət qədər yaxşı mənzərə yaradır. Təkcə keçən il gələn turistlərin sayı beş minə yaxın artmışdır. Əminəm ki, bu il də artım olacaqdır.

**Sənaye istehsalı ilə bağlı bu il çox önəmli açılışlar olacaq. Mən onların arasında Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələri qeyd etmək istəyirəm. Keçən ilin sonunda parkda dörd müəssisənin açılışı, üç müəssisənin təməlqoyma mərasimi keçirilmişdir.** Sumqayıt Kimya Sənaye Parkında rezidentlərin sayı on beşə çatıb və qoyulan sərmayənin həcmi 2,7 milyard dollardır. Bu layihə, bu böyük təşəbbüs bir daha onu göstərir ki, biz nə qədər düzgün siyasət aparırıq. Əgər biz o sahəni dağılmış, çürümüş dəmirlərdən təmizləməsəydik və yüzlərlə hektar torpağa infrastruktur layihələri gətirməsəydik, bu şəraiti yaratmasaydıq, oraya heç kim bir manat da qoymazdı. İndi isə oraya **2,7 milyard dollar sərmayə** qoyulur və bu, hələ başlanğıcdır. Bax, budur dövlətin vəzifəsi və düzgün siyasəti. Biz şərait yaradırıq, kömək göstəririk, investisiya qoyuruq ki, sonra da özəl sektor və xarici şirkətlər sərmayə qoysunlar. Ona görə Sumqayıt Kimya Sənaye Parkının yaradılması hesab edirəm ki, bizim böyük uğurumuzdur. Bu il isə "SOCAR Polymer" və gübrə zavodlarının açılışı nəzərdə tutulur. Bu iki müəssisə nəinki daxili tələbatı tam ödəyəcək, eyni zamanda, böyük ixrac imkanlarına da malik olacaq. Bu iki zavodun ümumi ixrac imkanları hər il 100 milyonlarla dollar həcmində olacaqdır. Eyni zamanda, xüsusilə "SOCAR Polymer" zavodu kiçik və orta sahibkarlığın inkişafına təkan verəcək. Çünki xammaldan məhsullar Azərbaycanda istehsal olunacaq.



Digər şəhərlərdə də sənaye zonaları, sənaye məhəllələri, sənaye parkları yaradılır. **Bu il Mingəçevir Yüngül Sənaye Parkının ilk zavodlarının açılışı gözlənilir. Neftçala Sənaye Məhəlləsi artıq fəaliyyətə başlayıb. Hesab edirəm ki, Masallı, Hacıqabul, Sabirabad sənaye məhəllələri bu il fəaliyyətə başlaya bilər.** Dövlət investisiya proqramında kifayət qədər vəsait var. Özəl sektor da buna hazırdır və sifarişlər var. Beləliklə, hər bölgədə, hər rayonda müasir sənaye potensialı yaradılacaq.

Bildiyiniz kimi, bir müddət bundan əvvəl "Azərxalça" İstehsalat Birliyi yaradılmışdır. Göstəriş verilmişdir ki, xalçaçılıq sənətini yaşatmaq, gənc nəsli bu işlərə cəlb etmək, sənaye sahələrini və ixrac potensialını yaratmaq üçün biz bu sahəyə mütləq ciddi yanaşmalıyıq. Artıq biz bunu görürük. Mən bir neçə yeni xalça fabrikinin açılışında şəxsən iştirak etmişəm, bu il isə 10 yeni fabrikin açılışı nəzərdə tutulur. Beləliklə, bu ilin sonuna qədər bizdə 20 xalça fabriki fəaliyyət göstərəcək. Bu fabriklərin hər birində 150-yə qədər işçinin çalışdığını və əksəriyyətinin də qadınlar olduğunu nəzərə alsaq, görün, biz nə qədər iş yeri və güclü ixrac potensialı yaradırıq, özü də qadınlar üçün. Bütövlükdə isə birinci mərhələdə xalça fabriklərinin sayı 30-a çatmalıdır. Bu da yəqin ki, 2019-cu ildə öz həllini tapacaq.

Kənd təsərrüfatı texnikası ilə bağlı bu il 160 milyon manat vəsait nəzərdə tutulub. Keçən il 10 min texnika gətirilmişdir. Bu il də bu proses davam etdiriləcək, müxtəlif texnikalar - taxılbiçən, pambıqyığan kombaynlar, traktorlar, qoşqular, digər xüsusi texnikalar alınacaqdır, vəsait də nəzərdə tutulubdur.

Bu il gübrənin alınması üçün subsidiyaların həcmi artırılacaq. Çünki məhsuldarlığa çox təsir edən amillərdən biri də gübrənin verilməsidir. Biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Suvarma işləri, texnika, gübrələr və pestisidlər, hamısını biz gərək elə təşkil edək ki, məhsuldarlıq artsın.

Ərzaq təhlükəsizliyi məsələləri daim diqqət mərkəzindədir. Son illərdə bu istiqamətdə irəliləyiş var, amma hələ ki, bizi tam qane edə bilməz. Ona görə bu məsələyə xüsusi diqqət göstərilməlidir. Deməli, biz kənd təsərrüfatının ənənəvi olan və müəyyən dərəcədə unudulmuş texniki sahəsini inkişaf etdirməyə o vaxt başlamışıq ki, ərzaq təhlükəsizliyi məsələlərinə güclü təkan verildi. Ancaq biz yenə də bu məsələ ilə bağlı çox ciddi işləməliyik. Misal üçün, taxılçılıqla bağlı bəzi rəqəmləri ictimaiyyətə çatdırmaq istəyirəm. 2017-ci ildə 1 milyon 275 min ton buğda idxal olunub. Bu, 2016-cı illə müqayisədə 20 faiz azdır. Bu, yaxşı göstəricidir. Bu, onu göstərir ki, yerli istehsal artır. Ancaq görürsünüz ki, burada hələ nə qədər böyük iş həcmi var. Biz çalışmalıyıq ki, taxılçılıqda xaricdən asılılığı minimuma endirək. Heyvandarlıqla bağlı nəticələr də yaxşıdır. Ancaq hələ ki, biz özümüzü süd və süd məhsulları ilə tam şəkildə təmin edə bilmirik. Kərə yağı, pendirlə tam təmin edə bilmirik. Ət və quş əti istehsalı artıq 100 faiz özümüzü təminetmə səviyyəsinə yaxınlaşır.

Hazırda 28 rayonda 43 aqroparkın yaradılması nəzərdə tutulur. Onlardan bir neçəsi artıq fəaliyyətə başlayıb. Onlardan 27-si bitkiçilik, 16-sı isə heyvandarlıq üzrə aqroparklardır. Mən hesab edirəm ki, bu aqroparklar nəticəsində biz ərzaq təhlükəsizliyi ilə bağlı olan əsas məsələləri həll edəcəyik. Bu aqroparklarda ət, quş əti, süd, yem, buğda, arpa, soya istehsalı da nəzərdə tutulur. Bu aqroparklara 183 min hektar torpaq ayrılıb. Burada biz çox yüksək məhsuldarlıq gözləyirik.

**Bu yaxınlarda qida təhlükəsizliyi qurumu yaradılıb. Bu da çox ciddi məsələdir. Bu xüsusi qurum həm idxal olunan qida məhsullarına nəzarət edəcək ki, keyfiyyətsiz, yaxud da insan orqanizmi üçün zərərli mallar gətirilməsin, eyni zamanda, Azərbaycanda daxili bazar və həmçinin ixrac üçün kənd təsərrüfatı və emal məhsulları sağlamlığa tam fayda verəcək səviyyədə istehsal olunsun.**

Bu il bizdə tərəvəz istehsalı və ixracı kəskin artacaq. Ölkəmizdə dörd yüz hektardan çox sahəsi olan istixanalar yaradılır. İxracla bağlı bizim heç bir problemimiz yoxdur. Biz yeni ixrac bazarlarına çıxırıq və çıxacağıq.

Keçən il pomidor ixracı rekord həddə çatıb, ölkəyə 151 milyon dollar valyuta gəlib. Buna da böyük tələbat, böyük maraq var. Ancaq yenə də deyirəm, 400 hektarda salınan bu istixanaların hamısında pomidor yetişdiriləcəksə, bəlkə bu qədər bazar da tapmaq çətin olacaq. Ona görə həm dövlət qurumları, həm sahibkarlar özləri marketinq aparsınlar.

Meyvə istehsalı bizdə artır və artacaq. Xurma ixracı keçən il 90 milyon dollar səviyyəsində olub. 2016-2017-ci illərdə 800 hektarda yeni xurma bağları salınıb. İki il ərzində 1800 hektarda nar bağları salınıb. Ona görə xurma, nar istehsalı artacaq və artmalıdır. İntensiv bağçılığa çox böyük diqqət göstərilir. Alma bağları da sürətlə genişlənir və bu da ixrac üçün çox önəmli sahəyə çevrilib.

Pambıqçılığın inkişafı rekord templərlə gedir. 2015-ci il ilə 2017-ci ili müqayisə etsək görərik ki, 2015-ci ildə 35 min ton, 2017-ci ildə isə 207 min ton pambıq tədarük edilib. Pambıqçılıqla məşğul olan zəhmətkeşlərin sayı 200 minə çatıbdır. Bu, məşğulluq deməkdir. Baxmayaraq ki, keçən il 207 min ton pambıq tədarük edilib, ancaq məhsuldarlıq lazımi səviyyədə deyil. İndi bu məsələ ciddi təhlil edilir.

Baramaçılıq da sürətlə inkişaf edir. Burada da müqayisələr aparmaq olar. 2015-ci ildə 236 kiloqram barama tədarük olunmuşdusa, keçən il bu rəqəm 244 tona çatıb. Bu il təqribən 400 ton barama tədarük edilməlidir. Beləliklə, Şəki ipək kombinatı daha böyük güclə işləyəcək, daha çox insan cəlb ediləcək.

Tut tinglərinin əkilməsi prosesi uğurla gedir. Bizim mövcud tinglərimizin sayı 2 milyon 200 mindir. 2016-2017-ci illərdə 1 milyon 800 min ting əkilmişdir. 2018-ci ildə isə 3 milyon tingin əkilməsi nəzərdə tutulub.

Fındıqçılıq sürətlə inkişaf edir. 2016-2017-ci illərdə 30 minə yaxın hektarda yeni fındıq bağları salınıb. Bizim ümumi fındıq bağlarının sahəsi 67 min hektardır. Fındıq bağlarının sahəsi 80 min hektara çatmalıdır. Fındığın ixracı da artır. Keçən il 114 milyon dollar həcmində fındıq ixrac etmişik.

Tütünçülük də sürətlə artır. 2016-cı ildə 3 min 500 ton, 2017-ci ildə isə 5 min 200 ton quru tütün tədarük edilibdir. Bir il ərzində istehsal 1,5 dəfə artmışdır. İndi qurutma kameraları da alınacaq, bu məhsul ölkəmizdə də istehsal olunacaq. Dekabr ayında yeni siqaret fabrikinin tikintisinə start verildi. Ümid edirəm ki, bu siqaret fabriki bu il işə düşəcək və beləliklə, xaricdən asılılıq azalacaq, ixrac potensialı yaranacaq.

Bu il yeni qoz bağlarının salınması nəzərdə tutulur, yerlər müəyyən edilib. Özəl sektor bu işə çox böyük maraq göstərir və təqribən 10 minə yaxın hektarda yeni qoz bağları salınacaq. Bir neçə ildən sonra bu da çox böyük gəlir gətirən ixrac sahəsi olacaq. Ölkəmizdə minlərlə hektarda badam bağları salınmalıdır, badam emalı fabriki tikilməlidir, paketləmə olmalıdır. Qısa müddət ərzində daxili bazarı təmin etməliyik, ixrac etməliyik.

Üzümçülüklə bağlı son rəqəmlər aşağıdakılardır: 2016-cı ildə 136 min ton üzüm tədarük edilmişdir. 2017-ci ildə bu rəqəm 152 min tona çatıb. İndi şərab istehsalı bizdə artmalıdır. Mövcud şərab zavodları tam gücü ilə işləməlidir. Çünki bu, hələ ki, belə deyil. Bir çox zavodlar tikilib, ancaq onların biri 20 faiz, biri 50 faiz, digəri 30 faiz gücü ilə işləyir. Bu, dözülməzdir. Ona görə tam gücü ilə işləmək üçün sahibkarlar gərək məsuliyyətli yanaşsınlar. Ona görə şərab istehsalı ilə bağlı dövlət ixrac imkanlarını genişləndirir, bütün sərgilərdə də iştirak edirik, yeni kontraktlar bağlayırıq, sahibkarlara kömək göstəririk. Tezliklə bizdə şərab ixracı artmalıdır.

Zeytunçuluqla bağlı. Son iki ildə 300 hektarda yeni zeytun bağları salınıb. **Bu il və gələn il Bakıətrafı bölgələrdə, qəsəbələrdə minimum 3 min hektarda yeni zeytun bağları salınacaqdır. Yeni zeytun yağı fabrikləri yaradılacaq ki, onların istehsal gücü ildə 3000–4000 ton olacaq. Görün, bizdə nə qədər böyük zeytun yağı ixracı gözlənilir. Bizim zeytunumuz çox keyfiyyətlidir, sadəcə olaraq, əvvəlki illərdə səmərəsiz istifadə olunurdu.**

Mən sahibkarların diqqətini bir sahəyə də cəlb etmək istəyirəm. Bu da çox perspektivli sahədir və tədricən Azərbaycanda inkişaf edir. Bu, arıçılıqdır. Bizim arıçılıq üçün çox gözəl təbii şəraitimiz var. Cənubi Qafqazda biz arıçılığın inkişafı üçün xüsusi bölgələrə malikik. Arıçılara indi dövlət dəstəyi də verilməlidir və veriləcəkdir. Deməli, ildə hər pətəyə dövlət tərəfindən 10 manat subsidiya veriləcək ki, bu sahəyə maraq daha da artsın və bal bizim böyük ixrac məhsulumuza çevrilsin. İndi ABAD konteynerlərində bal istehsalı təmin edilir.

Şəkər çuğunduru ilə bağlı görülən işlər nəticə verir. İndi bu sahədə 15 min insan çalışır və 14 min hektardan 400 min tondan çox şəkər çuğunduru tədarük edilib. Bütün bu çuğundur İmişli şəkər zavoduna göndərilmişdir. Azərbaycanda istehsal olunan şəkərin tərkibində yerli xammalın səviyyəsi artır. Biz buna da çalışmalıyıq.

Keçən il çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirildi. Bu sahələrə də böyük diqqət göstəririk. İlk növbədə, daxili tələbatı təmin etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik. Kənd təsərrüfatı ilə bağlı bir məsələyə də toxunmaq istəyirəm. Elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqi ilə bağlı işlər daha sürətlə və daha böyük səmərə ilə getməlidir.

İdxal və ixracla bağlı bir neçə söz demək istərdim ki, həm ictimaiyyət bilsin, həm də sahibkarlar bilsinlər ki, daxili tələbatı ödəmək və ixracımızı artırmaq üçün hansı sahələrə daha çox diqqət göstərilməlidir. Deməli, qida məhsulları üzrə ixracla bağlı birinci yerdə pomidor dayanır – 2016-cı ildə 94 milyon dollar, 2017-ci ildə 151 milyon dollar. Fındıq - 2016-cı ildə 105 milyon dollar, 2017-ci ildə 114 milyon dollar. Xurma - 2016-cı ildə 69 milyon dollar, 2017-ci ildə 91 milyon dollar. Alma - 2016-cı ildə 23 milyon dollar, 2017-ci ildə 31 milyon dollar. Kartof - 2016-cı ildə 16 milyon dollar, 2017-ci ildə 26 milyon dollar. Albalı və gilas eyni səviyyədədir – 23 milyon dollar. Soğan 2016-cı ildə ixrac demək olar ki, olmayıb, 2017-ci ildə 15 milyon dollar. Bitki yağları - 2016-cı ildə 10 milyon dollar, 2017-ci ildə 14,5 milyon dollar. Yəni, bu rəqəmlər onu göstərir ki, ixracda müsbət dinamika və meyillər var. Sadaladığım layihələr icra olunduqda bu dinamika daha da sürətlə gedəcək.

Bizdə qeyri-qida məhsulları üzrə birinci yerdə qızıldır. 2016-cı ildə 76 milyon dollarlıq, 2017-ci ildə 140 milyon dollarlıq qızıl satılıb. Alüminium - 2016-cı ildə 98 milyon dollar, 2017-ci ildə 117 milyon dollar. Polad borular - 2016-cı ildə 43 milyon dollar, 2017-ci ildə 39 milyon dollar – bax, yeganə pozisiyadır ki, burada bir qədər azalma var. Pambıq mahlıcı - 2016-cı ildə 6 milyon dollar, 2017-ci ildə 33 milyon dollar. Pambıq iplik - 2016-cı ildə 18 milyon dollar, 2017-ci ildə bir qədər azdır - 16 milyon dollar. Tütün - 2016-cı ildə 8 milyon dollar, 2017-ci ildə 14 milyon dollar. Sement-klinkeri - 2016-cı ildə 8 milyon dollar, 2017-ci ildə 12 milyon dollar. Armatur - 2016-cı ildə 2 milyon dollar, 2017-ci ildə 10 milyon dollar. Yəni, qida və qeyri-qida məhsulları üzrə müsbət dinamika mövcuddur. Bu da çox gözəl göstəricidir və bizə imkan verir ki, qeyri-neft ixracımızı böyük dərəcədə artıra bilək.

İdxalla bağlı rəqəmlər. Bu, ilk növbədə, sahibkarlar üçündür. Onlar bilsinlər ki, hansı pozisiyalar daha dinamik inkişaf edir və bu məhsullar üçün bazarlar da var. Ona görə bu məhsullarda artım olmalıdır. İdxal olunan məhsullar isə birbaşa sahibkarlara bir tövsiyədir ki, bax, biz burada idxalı əvəzləmək üçün daha da fəal işləməliyik. Deməli, keçən il buğdanın alınması üçün xaricə 227 milyon dollar valyuta gedib. İndi buğdanın böyük hissəsi Azərbaycanda istehsal olunacaq. Kərə yağı - 50 milyon dollar. Yeni süd zavodlarının tikintisi və mövcud süd zavodlarında kərə yağı xətlərinin yaradılması mütləq təmin edilməlidir. İndi sahibkarlara kreditlər veriləndə də bu məsələ nəzərə alınsın. Mineral və qazlı sular - xaricə 48 milyon dollar gedir. Baxmayaraq ki, bizdə bu qədər gözəl bulaqlar, yeraltı sular var, istehsal edirik, ancaq çatmır. Nə etmək lazımdır? Mövcud su müəssisələrinin gücünü artırmaq lazımdır. Yenə də dövlət öz dəstəyini göstərsin, sahibkarlar da fəal olsunlar, Azərbaycanın daxilində 48 milyon dollarlıq bazar var. Əgər biz bunu istehsal etsək, əlbəttə ki, xaricdən az gələcək.

Maraqlı bir məsələ kartofla bağlıdır - 26 milyon dollar dəyərində satmışıq, 40 milyon dollar dəyərində almışıq. İndi kartofun istehsalı elə olmalıdır ki, ümumiyyətlə, idxaldan söhbət getməsin. Ancaq daxili tələbatı ödəməliyik və ixrac etməliyik. Bu məsələ ilə bağlı çox ciddi təhlil aparılmalıdır.

Soya və ondan alınan məhsullar - 38 milyon dollar xaricə gedir. İndi soya əkini başlayır. Bu sahədə də yerli istehsal üçün yaxşı potensial var.

Qeyri-qida məhsulları üzrə. Dərman vasitələri - 211 milyon dollar dəyərində. Düzdür, biz onun hamısını **Azərbaycanda istehsal edə bilmərik. Ancaq indi bir neçə dərman zavodu tikilir və idxaldan asılılıq müəyyən dərəcədə azalacaq.**

Siqaret - 160 milyon dollar xaricə gedir. Həm insanlar zəhərlənir, həm də pul gedir. Ona görə bu məsələyə çox ciddi baxmaq lazımdır. Əminəm ki, indi qəbul edilmiş qanun siqaret çəkənlər üçün, əlbəttə, yeni bir tövsiyə olacaq ki, camaat bu pis vərdişdən əl çəksin. Xaricə 160 milyon dollar gedir. İndi biz siqaret fabriki tikirik ki, xaricdən asılılıq azalsın.

Trikotaj məhsulları - xaricə təxminən 100 milyon dollar gedir. Bizim fabriklərimiz, xammalımız var. Ona görə biz bu boşluğu doldurmalıyıq. Sabun-yuyucu vasitələr - 100 milyon dollarlıq idxal olunub. Yuyucu vasitələrin də, sabunun da istehsalı Azərbaycanda təşkil olunmalıdır.

Şüşə və ondan hazırlanan məhsullar - təxminən 80 milyon dollar xaricə gedir. Bu məsələ öz həllini tapacaq. Sumqayıt Kimya Sənaye Parkında müasir şüşə zavodu tikilir. Burada inşaatda istifadə olunan ən gözəl, müasir şüşələr istehsal ediləcək, xaricə ehtiyac olmayacaq. Gübrələr - 55 milyon dollar həcmində. Karbamid zavodu işə düşəndən sonra bu məsələnin də həlli nəzərdə tutulur. Yəni, ancaq sadaladığım bu pozisiyalar üzrə təqribən bir milyarddan çox dollar xaricə gedir ki, getməyə bilər, getməməlidir və getməyəcək.

Deyə bilərəm ki, bütövlükdə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı heç bir problem yoxdur. Maliyyə vəziyyətimiz çox sabitdir, müsbətdir. Beynəlxalq qurumlar Azərbaycandakı islahatları yüksək qiymətləndirirlər. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri bizdə aparılan islahatları yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 35-ci yerə layiq görüb. Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə birinci olmaq çox böyük nəticədir. İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında üçüncü yerdədir. Bu siyahıda cəmi 80-ə yaxın ölkə var. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında bu göstəriciyə görə də birinci yerdəyik. Ermənistana gəldikdə isə o, 45-ci yerdədir və buna görə də çox sevinir, toy-bayram edir. Biz isə üçüncü yerdəyik və bizdən qabaq ancaq inkişaf etmiş ölkələrdir, onların da sayı 30-dur. İnkişaf etmiş ölkələrin reytinqinə 30 ölkə daxil edilib və 80-ə yaxın ölkə inkişafda olan ölkədir. İnkişafda olan ölkələr arasında biz üçüncü yerdəyik. Deməli, dünya miqyasında inklüziv inkişaf indeksinə görə biz 33-cü yerdəyik. Rəqabətqabiliyyətliliyə görə isə 35-ci yerdəyik.

Bu rəqəmlər hər şeyi əyani şəkildə göstərir. Biz düzgün yoldayıq, düzgün siyasət aparırıq. Siyasətimiz xalqımızın maraqlarını təmin edir, dövlətimizi gücləndirir.

*...Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur.*

*Heydər ƏLİYEV*

# İslam İbrahimov - 70

## Görkəmli alimin yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirildi



2018-ci il yanvarın 26-da Bakı Biznes Universitetində i.e.d., professor İslam İbrahimovun anadan olmasının 70 illik yubileyi ilə əlaqədar Bakı Biznes Universiteti və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə "Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji Yol Xəritəsi: insan kapitalının formalaşmasının prioritet istiqamətləri" mövzusunda Respublika elmi-praktik konfrans keçirilmişdir.

Konfransı giriş sözü ilə Bakı Biznes Universitetinin rektoru, i.e.d., professor İbad Abbasov açmışdır. Azərbaycan İqtisadçılar İttifaqının sədri, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə yubilyarın həyatı və elmi fəaliyyəti barədə məruzə etmişdir.

Sonra elmi-praktik konfransda AMEA-nın müxbir üzvü, i.e.d., professor Əli Nuriyev, Milli Məclisin deputatı Qənirə Paşayeva, Dövlət Mükafatı laureatı, Əməkdar Elm Xadimi, f.e.d., professor, Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı, Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin baş direktoru, i.e.d., professor Rəsul Balayev və Prezident Aparatında Bələdiyyələrlə iş şöbəsinin referenti, i.ü.f.d. Əli Əkbərli çıxış etmişlər. Məruzəçilər İslam Hacı oğlu İbrahimovu bacarıqlı və böyük potensiala malik tədqiqatçı, iqtisad elminin inkişafına mühüm töhfələr verən, elmi-pedaqoji kadrların hazırlanmasında böyük xidmətləri olan, təhsildə, elmdə nəzəriyyə və praktikanı peşəkarcasına özündə birləşdirən iqtisadçı-alim kimi xarakterizə edərək yüksək qiymətləndirmiş, ona gələcək elmi fəaliyyətində uğurlar arzulamışlar.

Qeyd edək ki, elmi konfransın əsas məqsədi Azərbaycan Respublikasında "Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji Yol Xəritəsi: insan kapitalının formalaşmasının prioritet istiqamətləri"ni müəyyənləşdirmək, Azərbaycanda milli iqtisadiyyatın perspektivi üzrə Strateji Yol Xəritəsinə uyğun iqtisadiyyatın müxtəlif sahələrində və insan kapitalının mövcud durumu, formalaşması və inkişafını araşdırmaq, ölkənin aparıcı alimləri, mütəxəssisləri və digər maraqlı tərəflərini bir araya toplayaraq mövzu ətrafında müzakirələr təşkil etmək, mütərəqqi fikirləri paylaşmaq və ölkədə bu sahədə müsbət nəticələri və perspektivləri müəyyənləşdirməklə faydalanmaqdan və elmi-praktiki təkliflər hazırlamaqdan ibarətdir. Bazar münasibətləri şəraitində iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatların ölkənin dayanıqlı inkişafı və mövcud ehtiyatlardan səmərəli istifadə olunması, regionlara rasional yanaşmağı yaxşılaşdırmaqdan və insan amillərindən asılı olduğunu nəzərə alaraq, respublika konfransının Bakı Biznes Universitetinin professor-müəllim heyəti və çoxsaylı tələbə kontingentinin iştirakı ilə Azərbaycan İqtisadçılar İttifaqı ilə birlikdə keçirilməsi məqsədəuyğun hesab edilir.



## Sumqayıt Kimya Sənaye Parkının əməkdaşları "Brightlands Chemelot Campus"un təcrübəsini öyrəniblər

İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktor müavini Aynurə İsmayılova, Sumqayıt Kimya Sənaye Parkının əməkdaşları Elxan Şiriyev və Ayaz Allahverdiyev, "SOCAR Polymer"in əməkdaşları Rüfət Quliyev və Mətin Hüseynli Niderlandın Gelen şəhərindəki "Brightlands Chemelot Campus" sənaye parkının təcrübəsini öyrəniblər.

İnstitutdan bildiriblər ki, "Brightlands Chemelot Campus" sənaye parkında Azərbaycan nümayəndə heyəti ilə işgüzar görüş keçirilib. Görüşdə müxtəlif mövzularda təqdimatlar dinlənilib, "Brightlands Chemelot Campus"un təcrübəsi öyrənilib və potensial əməkdaşlıq imkanları müzakirə edilib.

Brightlands
Chemelot Campus

Səfər Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin "5.2. Kiçik və orta sahibkarların fəaliyyətini stimullaşdıran innovasiya infrastrukturunun formalaşdırılması" hədəf istiqaməti üzrə "5.2.1. Kiçik və orta sahibkarlığın inkişafı üçün innovasiya infrastrukturunun təkmilləşdirilməsi (2017-2020-ci illər)" və "5.2.2. Dövlət əhəmiyyətli və müstəqil elmi-tədqiqat (tədqiqat və inkişaf) mərkəzlərinin formalaşdırılması və elmi istehsalat birliklərinin yaradılması (2017-2020-ci illər)" tədbirlərinin icrası çərçivəsində baş tutub.

"Brightlands Chemelot Campus"un fəaliyyəti "smart" materiallar və davamlı kimyəvi istehsal, qida və sağlamlıq, verilənlərin (data) təhlili və "smart" (xidmətlər) həllər, regenerativ və həssas tibb və innovativ diaqnostika olmaqla dörd əsas istiqamətdən ibarətdir. Burada 207 şirkət, 11 min 724 iş yeri, 8198 tələbə təmsil olunur. Hazırda "Brightlands Chemelot Campus" öz imkanlarının genişləndirilməsi istiqamətində yeni tərəfdaşların və investorların axtarışını davam etdirir.

## "Pirallahı" günəş elektrik stansiyasında 1,1 meqavatlıq hissənin tikinti-quraşdırma işləri başa çatıb

Bu barədə Energetika Nazirliyinin 2017-ci il üzrə "Yanacaq-energetika kompleksində fəaliyyətə dair" hesabatında deyilir.

Bildirilir ki, ötən il istifadəyə verilən "Pirallahı" günəş elektrik stansiyası üzrə birinci mərhələ üzrə qoyuluş gücü 2,8 meqavat olan stansiya Pirallahı rayonunun şimal-şərq hissəsində yerləşir. Hazırda iki hektar ərazidə 1,1 meqavatlıq hissənin (4 min 400 günəş paneli) tikinti-quraşdırma işləri başa çatdırılıb. Pirallahı rayonunda 2020-ci ilədək GES-in ümumi gücünün 10 meqavata çatdırılması nəzərdə tutulub.



## Keçən il Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə 7,1 milyard kubmetr təbii qaz göndərilib

Bu barədə Energetika Nazirliyinin 2017-ci il üzrə "Yanacaq-energetika kompleksində fəaliyyətə dair" hesabatında deyilir.



Bildirilir ki, 2017-ci ildə Cənubi Qafqaz Boru Kəməri ilə Türkiyəyə 6 milyard 300,1 milyon kubmetr, Gürcüstana isə 814,9 milyon kubmetr Azərbaycan təbii qazı göndərilib. Bundan başqa, keçən il Qazıməmməd-Qazax boru kəməri ilə Gürcüstana 1 milyard 379,7 milyon kubmetr Azərbaycan qazı nəql edilib.

## TAP Cənub-Şərqi Avropada təmiz enerji mənbəyinin tətbiqinə imkan yaradacaq

Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) qaz boru kəməri Cənub-Şərqi Avropada təmiz enerji mənbəyinin tətbiqinə imkan yaradacaq.

Bu barədə TAP-ın kommersiya və xarici əlaqələr üzrə direktoru Ulrike Andres yanvarın 30-da Avstriyanın paytaxtı Vyanada keçirilən XI Avropa Qaz Konfransındakı (European Gas Conference 2018) çıxışında deyib.

O bildirib ki, TAP xüsusilə kömürə çox üstünlük verən Cənub-Şərqi Avropada təmiz enerji mənbəyinin tətbiqinə imkan yaradacaq. TAP və "Cənub Qaz Dəhlizi" karbon emissiyasının azaldılmasına və ətraf mühitə təsirin azaldılması hədəflərinə nail olmağa kömək edəcək.

"TAP və "Cənub Qaz Dəhlizi" enerji təhlükəsizliyinə, diversifikasiyaya və dekarbonizasiyaya doğru addım atır. Ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq TAP Bolqarıstanın qaza olan tələbatının 40 faizini, Yunanıstanın tələbatının üçdə birini, İtaliyanın idxalının isə 12 faizini təmin etmək iqtidarında olacaq", - deyə Ulrike Andres əlavə edib.

Qeyd edək ki, TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla, ümumilikdə, 65 faizi yekunlaşıb. Yanvarın ortasına boru kəməri marşrutu üzrə Yunanıstanda 518 kilometr ərazi təmizlənib, 473 kilometr boru xətt boyunca düzülüb, 457 kilometr boru qaynaqlanıb, 362 kilometr boru torpağa basdırılıb və 265 kilometr torpaq örtüyü əvvəlki vəziyyətinə gətirilib.

Albaniyada isə boru kəməri marşrutu boyunca 168 kilometr ərazi təmizlənib, 163 kilometr boru xətt boyunca düzülüb, 157 kilometr borunun qaynağı tamamlanıb.

Trans Adriatic
Pipeline

Boru kəmərinin Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın "Saipem S.p.A" şirkəti hazırda mikrotunel sahələrində çalışır. Layihə qrafikə uyğun icra edilir və TAP 2020-ci ilədək Azərbaycanın "Şahdəniz" yatağından ilk qazı almağa hazır olacaq.

TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ildə Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır.

Xatırladaq ki, TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

## "Azgüntex" zavodunda soyuducu motoroller və avtosoyuducu yarımqoşqunun istehsalı aparılır

"Azgüntex" MMC-nin Günəş Modulları zavodunda soyuducu motoroller və avtosoyuducu yarımqoşqunun nümunəvi istehsalı aparılır.

Bu barədə Energetika Nazirliyinin 2017-ci il üzrə "Yanacaq-energetika kompleksində fəaliyyətə dair" hesabatında deyilir.

Bildirilir ki, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin (ABOEMDA) tabeliyində fəaliyyət göstərən "Azalternativenerji" MMC-nin mütəxəssislərinin texniki dəstəyi əsasında 2017-ci ildə "Azgüntex" MMC-nin Günəş Modulları zavodunda soyuducu motoroller və avtosoyuducu yarımqoşqunun nümunəvi istehsalına başlanılıb. Bundan başqa, "Azgüntex" MMC-nin Günəş Modulları zavodunda günəş və günəş-külək enerjisi əsasında işləyən yeni işıq dirəklərinin istehsalı da həyata keçirilir.



KİVDF

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# FÜZULİ RAYONU – AQRAR İSLAHATLAR FONUNDA SAHİBKARLIQ SUBYEKTLƏRİ ÜÇÜN GENİŞ İMKANLAR AÇILIR

Ərazisinin bir hissəsi işğal altında olan Füzuli rayonu bütün çətinliklərə rəğmən, hər gün abadlaşır, inkişaf edir, iqtisadiyyatını möhkəmləndirir. Son illərdə rayonda yeni qəsəbələr salınıb, infrastruktur yenilənib, aqrar bölmənin yeni tələb və çağırışlara uyğun dirçəldilməsində, azad sahibkarlığın inkişaf etdirilməsində qarşıya qoyulan bütün vəzifələr yerinə yetirilib. 2017-ci il görülən işlərin həcminə, həyata keçirilən tədbirlərin miqyasına görə yaddaqalan il olub. Keçən il həm də bölgələrin inkişafı, kənd təsərrüfatında islahatların aparılması baxımından da uğurlu il kimi yadda qalıb. Bu yüksəliş və inkişafda Füzuli rayonunun da öz payı vardır. Rayonun ötən ilki makroiqtisadi göstəricilərini nəzərdən keçirdikdə, bu, bir daha öz təsdiqini tapır. Belə ki, il ərzində ayrı-ayrı sahələr üzrə istehsalın və xidmətin həcmi artmış, əhalinin gəlirləri və həyat səviyyəsi yüksəlmişdir. Yerli gəlirlər üzrə plan tapşırıqları 101 faiz yerinə yetirilmiş, yanvar-sentyabr aylarında ümumi məhsul buraxılışının həcmi 134783,4 manata çatmışdır.

Ümumi məhsul buraxılışını, əsasən, sənaye, kənd təsərrüfatı və xidmət sahələri təşkil etmişdir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı rayonda uğurla icra edilir. Dövlət Proqramı qəbul olunduğu vaxtdan keçən müddət ərzində rayonda nəzərdə tutulmuş tədbirlərin əksəriyyəti icra olunmuş, digər mühüm tədbirlərin də həyata keçirilməsində problem yaşanmamışdır. Dövlət Proqramına uyğun olaraq, rayon ərazisində abadlıq-quruculuq işləri bir an belə səngiməmiş, davamlı olaraq abadlıq-quruculuq işləri görülmüş, küçə və yolların təmiri və yenidən qurulması, rabitə-kommunikasiya xətlərinin yenilənməsi, enerji, qaz, su və kanalizasiya ilə bağlı problemlərin həll edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Kənd təsərrüfatı məhsullarının istehsalında artım dinamikası özünü göstərmişdir. Strateji məhsul olan taxılçılığın intensiv inkişaf yoluna çıxarılması təmin edilmişdir. Artıq yeddinci ildir ki, Füzuli taxıl istehsalına görə 100 min tondan artıq məhsul istehsal edən rayonlar arasında özünə yer almışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən strateji məhsul olan və ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayan taxılçılığın inkişafına göstərilən hərtərəfli dəstək rayon əməkçilərinin və sahibkarlarının həvəsini birə-beş qaldırmışdır. Dövlət başçısının tapşırığına uyğun olaraq, bölgələrdə iri taxılçılıq təsərrüfatları yaradılır. Dövlət başçısının təsdiq etdiyi Strateji Yol Xəritəsinə əsasən, Füzuli rayonunda hər biri 1000 hektar olan 4 iri taxılçılıq təsərrüfatı yaradılıb, 2700 hektar torpaq sahəsi Aqroparkın istifadəsinə verilib. Aqroparkın ərazisində birinci mərhələdə 1000 hektar sahədə ölkənin strateji maraqlarına uyğun olaraq soya, qarğıdalı, taxıl, pambıq və digər bitkilər becəriləcək, həmçinin 1000 baş müasir standartlara cavab verən mal-qaranın bəsləndiyi intensiv südçülük kompleksi yaradılacaq.

Aqroparkın istifadəyə verilməsi ilə rayon ərazisində, xüsusilə də 11-ci Qayıdış qəsəbələrində yaşayan məcburi köçkün işlə təmin olunacaq. Layihənin birinci hissəsi 2017-ci ildə başa çatdırılıb, qalan hissəsinin cari ilin sonunadək başa çatdırılması nəzərdə tutulub. Bundan başqa, 500 hektar torpaq sahəsi rayonun taxıl istehsalçılarını yüksək reproduksiyalı toxum materialı ilə təmin etmək üçün «Azəraqro» MMC-yə verilib.

Taxıl istehsalçıları 2016-2017-ci illərdə təsərrüfat içində 36082 hektar ərazidə taxıl əkini aparmışlar ki, bunun da 24838 hektarı buğda, 11244 hektarı arpadır. Becərmə yüksək səviyyədə aparılmış və bunun nəticəsidir ki, zəmilərdən 103076 ton məhsul götürülmüşdür. Bunun 73053 tonu buğda, 30022 tonu arpa olmuşdur. Hər hektarın məhsuldarlığı 30 sentner təşkil etmişdir. Bu da son hədd deyil. Yeni yaradılan taxılçılıq təsərrüfatlarında yüksək məhsuldarlıq əldə olunub ki, həmin təcrübənin geniş yayılmasına ehtiyac duyulur. Bu tipli modern taxılçılıq təsərrüfatlarının genişləndirilməsi nəticəsində taxılçılıqla məşğul olan digər təsərrüfat subyektləri də yüksək məhsuldarlığa nail ola biləcəklər. Bu inam ondan irəli gəlir ki, Kənd



Təsərrüfatı Nazirliyinin struktur bölmələri, «Aqrolizinq» ASC, Toxumçuluq Müfəttişliyi, Bitki Mühafizəsi Stansiyası və kənd təsərrüfatı ilə məşğul olan digər təşkilatlar, elə indidən 2018-ci ilin məhsulu üçün əsaslı tədbirlərə başlamışlar.

Aqrar rayon olan Füzulidə taxılçılıqla yanaşı, digər sahələrin də inkişafına xüsusi önəm verilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əhalinin məşğulluğunun təmin edilməsi, gəlirlərinin artırılması, eyni zamanda, ölkənin ixrac imkanlarının genişləndirilməsi ilə bağlı kənd təsərrüfatının ənənəvi sahələrinin – pambıqçılığın və baramaçılığın inkişaf etdirilməsi barədə tapşırıq və göstərişləri füzulililərin ürəyincə olmuş və hər bir təsərrüfat subyekti, necə deyərlər, qolunu çirmələyərək işə girişəndir.

Belə ki, 2017-ci ildə rayonda 2050 hektar ərazidə pambıq əkilmiş, sahələrə lazımi aqrotexniki qulluq göstərilmiş, mineral gübrələr verilmiş, suvarma optimal müddətdə aparılmışdır. Rayonun minlərlə əməkçisi pambıq əkininə cəlb edilmiş, nəticədə sahələrdən 4 min ton məhsul yığılaraq, tədarük məntəqələrinə təhvil verilmişdir.

Ənənəvi təsərrüfat sahələrindən olan baramaçılığın uzun fasilədən sonra yenidən dirçəldilməsi əhali tərəfindən razılıqla qarşılanmışdır. 2017-ci ildə kümçülər 25 tona yaxın yaş barama istehsal etmişlər. Füzuli rayonu baramaçılıqda əldə etdiyi nəticələrə görə respublika üzrə birinci üçlükdə özünə yer tutmuşdur. Qısa müddət ərzində yüksək gəlir əldə edən Füzuli kümçüləri bu il 40 tona yaxın barama istehsal etməyi qarşılarına məqsəd qoymuşlar.

Rayonda kənd təsərrüfatının digər sahələrində əldə olunan nəticələr də ürəkaçandır. Belə ki, rayonda 3725 ton tərəvəz, 2827 ton bostan, 1551 ton üzüm, 15 ton çəltik, 1769 ton kartof, 2591 ton meyvə toplanmış, 2017 ton ət, 17838 ton süd, 6215.0 min ədəd yumurta istehsal olunmuşdur. Bir məsələni xüsusi olaraq vurğulamaq lazımdır ki, rayon əhalisinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına tam ödənilir və respublika bazarlarına bir sıra məhsullar çıxarılır.

Rayonda azad sahibkarlığın inkişafı həmişə diqqət mərkəzində saxlanılır. Məhz bu diqqət və qayğının nəticəsidir ki, yüzlərlə insan özəl sektorda çalışır, rayon iqtisadiyyatını möhkəmləndirir. Hər il yeni-yeni emal müəssisələri açılır, buraxılan məhsulların növü və çeşidi genişlənir.

Bu isə rayonda məhsul bolluğuna, əhalinin məşğulluq səviyyəsinin artmasına gətirib çıxarır. Füzuli rayonunda daimi və mövsümi olmaqla 4220 yeni iş yerləri yaradılıb. Şübhəsiz ki, sahibkarlıqla məşğul olmaq, investisiya axımını təmin etmək üçün rayonda müasir infrastrukturun yaradılması zəruri şərtdir. Füzuli rayonunda bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Rayonda əhalinin və istehsalın fasiləsiz və dayanıqlı elektrik enerjisi, qaz, içməli və suvarma suyu ilə təminatı sahəsində müəyyən işlər görülmüş, köhnəlmiş və sıradan çıxmış elektrik naqilləri, qaz və su boruları yeniləri ilə əvəz olunmuş, drenaj şəbəkəsi lildən təmizlənmişdir.

Dövlət Proqramına uyğun olaraq, Füzuli rayonu 100 faiz qazlaşdırılıb. Rayonun 36 yaşayış məntəqəsinin hər birində əhali mavi qazdan istifadə edir.

Respublikanın bütün bölgələrində olduğu kimi, Füzuli rayonunda da Heydər Əliyev Fondunun, Fondun prezidenti Mehriban xanım Əliyevanın qayğı və diqqəti hiss olunur.

Fond Füzulidə 5 böyük layihə gerçəkləşdirib. Horadiz şəhərində «Aprel şəhidlərinə xatirə» kompleksi, üçüncü Zobucuq qəsəbəsində kənd təsərrüfatı məhsulları satış bazarı, pambıq qəbulu məntəqəsi tikilərək istifadəyə verilib. Hazırda Horadiz şəhərində Bayraq Meydanı ərazisində Bayraq Muzeyinin tikintisinə başlanmış, barama qəbulu və emalı məntəqəsinin tikintisinə yaxın günlərdə başlanacaq.

Rayonda kəndarası və magistral avtomobil yollarının əsaslı təmir-bərpa işləri davam etdirilir. Ölkə başçısının tapşırığına əsasən, 25 min nəfər əhalinin yaşadığı, 8 məntəqəni birləşdirən 31,7 kilometrlik Əhmədbəyli-Alxanlı-Zobucuq, həmçinin Bala Bəhmənli-Araz, Dilogarda-Araz-Zəngər, o cümlədən 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolları yenidən qurulub. Rayon ərazisində, ümumilikdə 80 kilometrə yaxın kənd və qəsəbələrarası yolların bərpası işləri başa çatdırılıb.

Hacıqabul-Bəhramtəpə-Mincivan magistral yolunun Füzuli rayonu ərazisindən keçən 40 kilometrlik hissəsində aparılan təmir-tikinti işləri tamamlanıb.

Füzuli rayonunun bugünkü inkişaf səviyyəsi, burada aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri kəndlərin, qəsəbələrin, yaşayış məntəqələrinin simasını büsbütün dəyişib. Miskin görkəmə düşmüş, əhalisi aclıq-səfalət içində boğulan, yardım və ianələr hesabına yaşayan Ermənistan yaxşı dərk etməlidir ki, işğal altında olan torpaqları qeyd-şərtsiz qaytarmalıdır. Bu nə qədər tez baş versə, onların özü üçün də yaxşıdır. Həmin torpaqda yaşayan ermənilər də ağ günə çıxarlar, rahat, firavan həyata qovuşarlar.

O gün mütləq gələcək. İllərdir ki, düşmən əli ilə səpilən toxum cücərmir. Əkilib səpilməyən barlı-bərəkətli torpaqlarımız, güllü-çiçəkli çəmənlərimiz, buz kimi bulaqlarımız, zümrüd meşələrimiz, vüqarlı dağlarımız həsrətlə yolumuzu gözləyir.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

## QHT Şurası 2017-ci ildəki fəaliyyətinin yekunları ilə bağlı hesabat konfransı keçirib

"Cənab Prezident İlham Əliyevin tapşırığı belədir ki, hər hansı ayrı-seçkilik etmədən bütün QHT-lərin cəmiyyət üçün faydalı olan təşəbbüsləri dəstəklənməlidir. Buna görə də Şuranın layihələri maliyyələşdirməsi zamanı heç zaman subyektivliyə yol verilmir". Bu sözləri Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2017-ci ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat konfransında Şura sədri, Milli Məclisin deputatı Azay Quliyev deyib. O, bildirib ki, Şura 10 ildir dövlətin QHT-lərə beş istiqamət üzrə dəstəyini həyata keçirir.

Şura sədri ötən il rəhbərlik etdiyi qurumun 494 QHT layihəsini maliyyələşdirdiyini və bu layihələr çərçivəsində 31 adda kitab, 27 adda kitabça, 161 adda buklet, 130 adda digər çap materiallarının (posterlər, təqvimlər və s.) nəşr edildiyini də diqqətə çatdırıb. Həmçinin, 35 televiziya verilişi, 26 sosial çarx, 20 film və 16 sayt hazırlanıb. "Şura ötən il 4 dövlət proqramının icrasında uğurla iştirak edib. Xüsusilə, "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində Şura tərəfindən görülən işlər 100% icra olunmuş statusu qazanıb", – deyə Şura sədri qeyd edib.

Tədbirdə bildirilib ki, 2018-ci ildən etibarən QHT-lərin apelyasiya müraciətləri elektron qaydada qəbul ediləcək. Bununla bağlı artıq Şuranın e-qht.az saytında apelyasiya bölməsi yaradılıb. Şura 2012-ci ildə "Peşə birlikləri haqqında" və "Sosial sifarişlər haqında" qanun layihələrini



hazırlayaraq Milli Məclisə təqdim edib. Hər iki qanun layihəsinin müzakirəsi Milli Məclisin 2018-ci il fəaliyyət planına daxil edilib.

Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov da tədbirdə təmsil etdiyi qurumun ötənilki fəaliyyəti barədə geniş təqdimatla çıxış edib.

O, 2017-ci ildə "Vətəndaş cəmiyyəti" jurnalının 12 nömrəsində 600-dən çox QHT-nin fəaliyyətinin işıqlandırıldığını, Qhtxeber.az saytına il ərzində 48 min xəbər yerləşdirildiyini və maliyyələşən layihələrin icrasına 1739 nəfərin cəlb olunduğunu qeyd edib.

Həmçinin, vurğulanıb ki, 19 yerli QHT-nin xarici ölkələrdə keçirilən tədbirlərə səfərləri dəstəklənib. 20 beynəlxalq təşkilatın və xarici ölkə səfirliklərinin nümayəndələri ilə Şurada görüş keçirilib. Şuranın www.cssn.gov.az, www.e.qht.az və www.qhtxeber.az saytları məlumatlılıq baxımından daha da təkmilləşdirilib. 2018 ildə e-növbə proqram təminatının istifadəyə verilməsi planlaşdırılır. Bu proqram vasitəsilə QHT-lər qrant müqaviləsi bağlanması üçün bütün prosesləri elektron qaydada həyata keçirəcəklər. Bununla da müqavilə bağlanması üçün Şuraya gəlmək vaxtını özləri təyin edə biləcəklər.

Şura Katibliyinin icraçı direktoru bildirib ki, Azərbaycan Respublikası Prezidentinin "Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında" 2014-cü il 11 sentyabr tarixli Fərmanına əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Dövlət Xidmətlərinin Elektron Reyestrində Şura ilk və yeganə qurum olaraq digər büdcə təşkilatları bölməsində qeydiyyata alınıb.

Fərasət Qurbanov Şura Katibliyinin icra olunan layihələrinin 330-nu yaxşı, 72-sini əla, 79-nu kafi və 7-sini qeyri-kafi qiymətləndirdiyini deyib.

Hesabat məruzəsi ilə çıxış edən QHT rəhbərləri Azər Həsrət, Rauf Zeyni, Əkrəm Baydəmirli, Zaur Hüseynzadə, Niyaməddin Orduxanlı, İlham Məhərrəmli, Mətanət Əsgərqızı, Radə Abbas, Rəhim Hüseynzadə, Bəxtimşah Tağıyeva və digər şəxslər Şuranın 2017-ci ildəki fəaliyyətinin məhsuldar olduğunu və qənaətbəxş saydıqlarını deyiblər.

Konfransda Belçikanın səfiri, Avropa İttifaqının, İsveçrə, Rumıniya, Almaniya və Yunanıstan səfirliklərinin nümayəndələri iştirak edib.

## "AzSığorta" ASC yeni baş ofisə köçüb

"Bu gördüyünüz ofis bizim yeni planlarımızın, yeni biznes strategiyamızın bir hissəsidir. Yeni ofis elə layihələndirilib ki, şirkətdə əməkdaşlarımızın rahat, səmərəli və müasir iş şəraitində işləməsi üçün bütün imkanlar var. Bu isə bizə qarşıya qoyduğumuz yeni hədəflərə çatmağımıza kömək edəcək". Bu sözləri yanvarın 31-də ölkənin aparıcı sığorta şirkətlərindən olan "AzSığorta" ASC-nin yeni baş ofisinin açılış mərasimində şirkətin İdarə Heyətinin sədri Anar Talıbov deyib. O, həmçinin qeyd edib ki, ötən 2017-ci il sığorta bazarı, o cümlədən "AzSığorta" ASC üçün çağırışlar ili olmuşdur. Lakin şirkət bütün bu çətinliklərə, bazardakı gərgin əməliyyat şəraitinə baxmayaraq, vacib və cəsarətli qərarlar vermişdir ki, bu ofis də həmin qərarlardan biridir.

Yeni ofis çox funskional üslubda dizayn olunmaqla bərabər, əməkdaşların rahatlığını təmin etmək üçün bütün imkanlara malikdir. Ofisin əsas üstünlüyü onun "open space" formatında olmasıdır ki, bunun da sayəsində kommunikasiya prosesi daha operativ olur. Ofis, həmçinin görüş otaqlarından, gözləmə zalından və istirahət zonasından ibarətdir.

## Müsabiqə qalibləri mükafatlandırılıb

Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin birgə keçirdikləri "İnformasiya cəmiyyətində müəlliflik və digər əqli mülkiyyət hüquqlarının mədəni, iqtisadi və hüquqi əhəmiyyəti" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb.

Tədbirdə Müəllif Hüquqları Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov, Fondun icraçı direktoru Vüqar Səfərli, Milli Məclisin deputatları, müxtəlif nazirlik və komitələrin məsul vəzifəli əməkdaşları, habelə ölkənin 20-dək aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri və mükafatlandırılan jurnalistlər iştirak ediblər.

Müəllif Hüquqları Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı dövründə müəlliflik və digər əqli mülkiyyət hüquqlarının qorunmasının xüsusi aktuallıq kəsb etdiyini vurğulayıb. O, bunun nəticəsi olaraq respublikamızın Rəqabətqabiliyyətlilik İndeksinin "Əqli mülkiyyətin qorunması" alt göstəricisi üzrə 4,8 bal toplamasını və dünyada 37-ci yerdə qərarlaşmasını mühüm uğur kimi qiymətləndirib.

Tədbir iştirakçılarını salamlayan icraçı direktor Vüqar Səfərli mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlığın genişləndirilməsi məqsədinə xidmət edən tədbirlərin, eləcə də birgə fərdi yazı müsabiqələrinin təşkilinin Fondun fəaliyyətində prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. Vüqar Səfərli müsabiqəyə 22 kütləvi informasiya vasitəsindən 35 yazının təqdim edildiyini, yazıların Fondun 3, Müəllif Hüquqları Agentliyinin 1 nəfər eksperti tərəfindən qiymətləndirildiyini bildirib. O, ekspertlərin yekun qərarına əsasən, 6 jurnalistin əsas, 10 jurnalistin həvəsləndirici mükafata layiq görüldüyünü bildirib. Tədbirdə, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov da çıxış etmişdir.

**Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və “Kaspi” qəzetinin keçirdiyi müsabiqəyə təqdim etmək üçün**

## Azərbaycanın maarifçi qadınları

# “Mən fəxr edirəm ki, Sona Tağıyeva kimi müəllim var”

***“Yer üzündə gördüyümüz hər şey qadının əsəridir”.***

Mustafa Kamal Atatürk tərəfindən deyilmiş bu dəyərli sözlər, doğrudan da, qadının cəmiyyətdəki önəmli rolunu bir daha təsdiqləyir. Heç kəsə sirr deyil ki, dünyada qazanılan bir çox uğurların arxasında çox güclü bir qüvvə dayanır – QADIN. Çünki öz adını tarixə yazdırmış liderləri də dünyaya gətirən, onu yetişdirib, uğurlar qazanmasına yol açan da elə qadınlardır. Həmişə “zərif məxluqlar” deyə çağırılıb, heç zaman bu “zərif”liyin yerini “zəif”liyə buraxmayan qadınlar...

Zaman-zaman amansız savaşları belə dindirməyə qadir olan qadınlar bəzən də ən böyük xoşbəxtliklərin ardındakı gizli qəhrəmanlardır. Ona görə də qadınların artıq ictimai həyatımızın hər bir sahəsində yer alması çox sevindiricidir. İstər siyasət, istər idarəçilik, istər hüquq, istər səhiyyə, istərsə də digər sahələrdə artıq rast gəlinən çoxsaylı qadın imzaları da onların qazanılan uğurların əsas qəhrəmanlarından olduğunu bir daha təsdiqləyir.

Dünya əhalisinin, demək olar ki, yarısından çoxunu qadınlar təşkil edir. Təkcə bu fakt belə qadının cəmiyyətin, insanların maariflənməsindəki rolunu əks etdirməyə kifayətdir. Sadəcə nəzər salmaq yetər ki, cəmiyyətin qadının maariflənməsinə, xüsusilə təhsilli və bilikli qadına nə qədər ehtiyac duyduğunu görə bilək. Çox zaman sadəcə evdə, mətbəxdə və ya bağda qarşılaşdığımız qadınlar, axı, həm də ölkəmizin yaşadığı Böyük Vətən müharibəsində arxa cəbhənin əsas qüvvələrindən olmuşlar. Ona görə də bu böyük “potensialın” maarifdə, təhsildə rolunun artırılması, əlbəttə ki, çox önəmlidir. Çünki doğulan andan alışdığımız, bəzən də ərköyünlükdən irəli gələn hər şıltaqlığımıza dözən ana nəvazişindən sonra ilk ayaq açdığımız məkan olan məktəbdə də bizə ilk qiymət verən elə müəllimlər olur. O müəllimlər ki, məhz onların sayəsində bizdə elmə, təhsilə, bilik öyrənməyə maraq oyanır. Hətta bəzən müəllimlik sənətinə dərin hörmət, bu hörmət və ehtiram sahibinə isə əbədi sevgi... Bir zamanlar 190 saylı məktəbin direktoru olmuş Sona Tağıyeva kimi...

Hələ sağlığında əfsanəyə çevrilmiş müəllimlərdən olan Sona Tağıyeva haqqında çox yazmaq, saatlarla danışmaq olar. Çox gənc yaşlarında 190 saylı məktəbə direktor təyin edilən Sona müəllimə altmış ilə yaxın bir müddətdə bu məktəbə direktorluq etmişdir. Öz sənətinə vurğunluğunu bu təhsil müəssisəsindəki zəhmətkeş və gərgin fəaliyyəti, doğma balaların maariflənməsi uğrunda mübarizəsi ilə nümayiş etdirən Sona müəllimə nəinki öz dövründə, elə indi də bir nümunə olaraq qalmaqdadır.

1941-1945-ci illər müharibəsinin öz ağırlığı ilə həyatımızın hər bir sahəsinə ciddi zərbələr vurduğu bir dövrdə məhz bu qadın əvvəllər hərbi hospital olan binada məktəb yaradılması kimi çətin bir vəzifəni öz üzərinə götürmüşdür. Əlbəttə, öhdəsindən də uğurla gəlmişdir. Sona Tağıyeva heç bir işin çətinliyindən qorxmayan, cəmiyyət üçün faydalı olacaq hər bir işə ürəklə yanaşan insanlardan, müəllimlərdən idi. Yaxınları da onun haqqında xatirələrini bölüşərkən bu məktəbin yaradılması işinə onun necə böyük ürəklə yanaşdığını Sona müəllimənin öz sözləri ilə belə qeyd edirlər: **“Hərbi hospitallar üzdə olan, görünən yaraları sağaltmışdı, biz ziyalılar isə daha dərində, ürəklərdə olan gözəgörünməz qəlpələri təmizləməli, mənəvi sağlamlıq ab-havası yaratmalı idik”.**

Sona Tağıyeva bu məktəbin ona həvalə edilməsi ilə bağlı xatirələrində qeyd edirdi: “Məni rayon xalq maarif şöbəsinə çağırıb, tam ciddiliklə dedilər: madam ki, inkişaf yaratmaq istəyirsiniz, budur, imkan veririk, yeni təsis edilən 190 nömrəli məktəbi sizə tapşırırıq. Buyurun, işləyin, qurun, yaradın”. O isə özünün bütün bacarığı və peşəsinə duyduğu dərin məhəbbətlə işlədi, qurdu və yaratdı, özü də, demək olar ki, heç nədən...



Təbii ki, köhnə hospitaldan yeni məktəb yaradılması çox çətin və məsuliyyətli bir iş idi. Təmirə ehtiyacı olan boş otaqlar, alınacaq çoxsaylı məktəb ləvazimatları, açılacaq fənn kabinetləri, laboratoriyalar... Lakin Sona müəllimə bu işin də öhdəsindən uğurla gəlməyi bacardı. O, ordan-burdan parta, stul taparaq, məktəbdə nizam-intizam, səliqə-sahman yaratdı. **Məhz Sona xanımın müdrik fəaliyyətinin nəticəsidir ki, sonralar bu məktəb respublikanın nüfuzlu təhsil ocaqlarından birinə çevrildi. Əbəs yerə deyil ki, 190 nömrəli məktəbə “Sona xanımın məktəbi” deyirdilər.**

Sona Tağıyeva hər zaman uşaqlara qayğı və sevgi ilə yanaşmışdır. Bəlkə də bu sevginin təzahürü idi ki, onlar da bu məhəbbəti hiss edir, ona cavab verirdilər. O, özü də hər zaman qeyd edirdi ki, millətin tərəqqisi üçün ən vacib şərt onun təhsil sisteminin yaxşılaşdırılmasıdır, çünki gənc nəsli saf və sağlam əqidəli görmək istəyiriksə, onlara qayğı və məhəbbətlə yanaşmalıyıq.

Şagirdlərə hərtərəfli bilik verməkdən əlavə, təlim-tərbiyə işlərinin də hər zaman önəmini qeyd edən Sona müəllimə hər bir uşağa ayrılıqda diqqət yetirir, onlara fərdi yanaşırdı. Öz işinə həmişə can yandıran Sona xanım müəllimlərdən də bu diqqəti gözləyirdi. Çünki o, çox yaxşı müəllim və bir pedaqoq kimi bunsuz məktəbin inkişafının mümkün olmayacağını bilirdi. Hətta müsahibələrinin birində o qeyd edirdi: **“Məktəbdə minlərlə şagird təhsil alır. Əsl ustalıq, müəllimlik ondadır ki, hər bir uşağa ayrıca fərd kimi yanaşasan, onun bir şəxsiyyət kimi böyüməsinə, formalaşmasına kömək edəsən. Biz buna nail olmuşuq və ona görə də bizim məktəb, bir qayda olaraq, qabaqcıl təcrübə məktəbi kimi tanınır”.**

Xoşbəxtlikdənmi, bəlkə də xoş bir təsadüfmü desəm, sonralar yüzlərlə şagirdin nəinki təhsil almasında, həmçinin şəxsiyyətinin formalaşmasında mühüm rol oynayan Sona xanımın ilk müəlliməsi Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabinin qızı Hənifə xanım Məlikova olmuşdur. Çox yüksək ali insani keyfiyyətlərə malik olan, hər zaman özünün və qarşısındakının şərəf və ləyaqətini gözləyən Hənifə xanım haqqında Sona Tağıyeva öz xatirələrində yazırdı: “**Mənim pedaqoji fəaliyyətimin özülü həmin ibtidai məktəbdə qoyuldu. O, bizə ilk sinifdən yazıb-oxumağı, qələmi necə tutmağı öyrətməklə yanaşı, həmçinin şəxsiyyət bütövlüyünün müqəddəsliyinə inam yaratdı. Bunsuz bütöv insan kimi yetişmək mümkün deyil”.** Hənifə xanımın Sona Tağıyevada, Sona xanımın isə dərs dediyi, öz pedaqoji fəaliyyəti ilə təsir etdiyi hər bir insanda buraxdığı dərin izlər, yaratdığı xoş təəssüratlar ilə müəllimlik peşəsinin ülviliyi və ucalığı bir daha özünü göstərməkdədir. Əgər yaxşı bir cəmiyyət, savadlı bir nəsil, gözəl bir gələcək görmək istəyiriksə, deməli, ilk olaraq Sona Tağıyeva kimi müəllimlərə sahib olmalıyıq.

Bütün bunlar Sona Tağıyevanın Azərbaycanın təhsil tarixində, gənc nəslin maariflənməsi uğrunda aparığı gərgin mübarizənin, göstərdiyi misilsiz xidmətlərin yalnız bir hissəsidir. Bəlkə də onun çəkdiyi bu zəhmətlər özünün bir zamanlar təhsil ala bilmək üçün yaşadığı əziyyətləri başqaları da yaşamasın deyə idi... Hətta o, özü də xatirlərində qeyd edirdi ki, “Ailəmizdə ilk təhsil qapısını açan mən oldum. Həm də uzun-uzadı xahişlərdən, yalvarışlardan sonra atam mənim məktəbə getməyimə icazə verdi. Çünki o vaxtlar qız xeylağının adam arasına çıxması həqarətlə qarşılanırdı”. Ailə ehtiyaclarının ağırlığı ucbatından erkən yaşlarından əmək fəaliyyətinə başlayıb. Evdə böyük uşaq olduğundan özündən kiçik qardaş və bacılarının oxumasına da o, kömək etməli olub, gündüzlər işləyib, axşamlar isə oxuyurmuş...

Sona xanım nadir insanlardandır ki, Azərbaycanın birinci və ikinci dəfə müstəqillik qazanmasına şahidlik edib. Sonralar o, öz xatirələrində həmin illəri belə yada salardı: **“Mən xoşbəxtəm ki, arzusunda olduğum ən ülvi mükafatı da aldım, müstəqil Azərbaycan Respublikasının vətəndaşı oldum. Bizim əvvəllər də fərəh doğuran günlərimiz olub, ancaq dünyada yaşayıb, dünya dövləti sayılmaq bir ürək qubarı idi”.**

Sona xanımın ömür kitabı, həyat və fəaliyyəti Azərbaycan maarifinin, Azərbaycanın təhsilinin ən parlaq nümunəsidir, desək, yanılmarıq. Çünki Sona Tağıyeva nəinki öz gərgin və zəhmətkeş fəaliyyəti ilə 190 saylı məktəbi yaratdı, həm də özündən sonra, sözün həqiqi mənasında, bir müəllimlik məktəbinin əsasını qoydu. Çəkilən bütün bu zəhmətlərin nəticəsi idi ki, məktəb 1966-cı ildə Qırmızı Əmək Bayrağı ordeninə layiq görülmüş, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin birinci dərəcəli qızıl medalı ilə təltif edilmişdir.

**Əməkdar müəllimə fəxri adını almış Sona Tağıyeva isə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, Oktyabr inqilabı ordeni, Şöhrət ordeni kimi yüksək mükafatlara layiq görülmüşdür. Çoxsaylı mükafatlarının olmasına baxmayaraq, Sona xanım üçün hər zaman ən böyük mükafat onun “Sona müəllimə” deyə sonsuz rəğbət və məhəbbətlə çağırılması, ehtiram hissi ilə qarşılanması idi.**

Öz yaxşı əməlləri, xeyirxahlığı ilə əbədi ömür qazanan, Azərbaycan pedaqogikasında öz gərgin zəhməti ilə dərin izlər buraxan, əsasını qoyduğu gözəl ənənələrlə müəllim adını və peşəsini ucalardan uca edən Sona müəllimə neçə-neçə nəsillərin zəngin elm və bilik abidəsinin əsl memarı və qurucusu olmuşdur. Heç təsadüfi deyil ki, ümummilli lider Heydər Əliyev də Sona Tağıyeva ilə görüşəndə böyük qürur hissi ilə “Mən fəxr edirəm ki, Sona Tağıyeva kimi müəllim var”, - demişdi...

**Mətanət Hüseynova**

# Avropa İttifaqı Bakı Limanının beynəlxalq logistika mərkəzinə çevrilməsini dəstəkləyir



Bu fikri Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey Azərbaycana səfəri çərçivəsində yanvarın 30-da Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə tanışlıq zamanı deyib.

Qonağı Bakı Limanında gedən işlərlə tanış edən “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin baş direktoru Taleh Ziyadov H.Hololeyin diqqətinə çatdırıb ki, yeni Bakı Limanının inşası Prezident İlham Əliyevin ölkənin regional nəqliyyat qovşağına (hab) çevrilməsi siyasətində mühüm yer tutur. Cari ilin ortalarında tikinti işləri bitməklə 12 körpüdən ibarət olacaq limanın yükaşırma qabiliyyəti 15 milyon ton yük, o cümlədən 100 min konteyner (TEU) olacaq. Ümumiyyətlə isə, bütün inşa işləri bitdikdən sonra liman mövcud 17 körpüsü ilə 25 milyon ton yük, o cümlədən 500 min konteyner yük aşıra biləcək.

Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololey yeni Bakı Limanın Avropa-Asiya ticarət dövriyyəsində mühüm yer tutduğunu qeyd edib: “Azərbaycan Avropanın yaxın tərəfdaşıdır və biz bu tərəfdaşlığı daha da inkişaf etdirmək niyyətindəyik. Azərbaycan Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi mühüm rol oynayır. Mən çox məmnunam ki, Avropa İttifaqı həm əməliyyat imkanlarının artırılması, həm də beynəlxalq logistika və ticarət mərkəzinə çevrilməsi baxımından Bakı Limanını dəstəkləyir və gələcəkdə də dəstəkləyəcək.

Bu müasir liman genişlənmiş Avropanın Trans-Avropa şəbəkəsinin (TNT-T) bir hissəsidir”.

Baş direktor Taleh Ziyadov qonağın nəzərinə çatdırıb ki, Avropa Komissiyasının gündəmində vacib yer tutan bağlılıq, regional ticarət və logistika “hab”larının yaradılması Bakı Limanının da diqqət mərkəzindədir.

Baş direktor bildirib ki, “Aİ və Asiya arasındakı ticarət dövriyyəsinin artdığını nəzərə alaraq, Bakı Limanı bu inkişafa hazırdır, ticarət və xüsusən rəqəmsal dəhlizin yaranmasına töhfə verməkdədir. Limanda tətbiq olunmağa başlanan IT sistemi bütün əməliyyatları avtomatlaşdırıb, yük sahibinə onlayn rejimdə yükə nəzarət etmək, bizim ərazidəki yerini təyinetmə və sair üstünlüklər verir”.

2017-ci ilin yanvar ayından etibarən Avropa İttifaqının Bakı Limanının əməliyyat imkanlarının yaxşılaşdırılmasına dair dəstək layihəsinin icrasına başlanılıb. Layihə çərçivəsində Aİnin Antverp, Hamburq, Koper və Triest kimi qabaqcıl limanlarına təlim səfərləri təşkil olunub və təcrübə mübadiləsi aparılıb. Ümumiyyətlə, Bakı Limanının müasir və şəffaf prinsiplərə söykənən əməliyyat sistemi, “yaşıl” və “smart” texnologiyalardan istifadəsi Avropa İttifaqı tərəfindən dəstəklənir.

# SOCAR: “Star” neft emalı zavodundakı 76 çənin montajı və test işləri tamamlanıb




SOCAR-ın 5,7 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, “Petkim” neft-kimya kompleksinin ərazisində inşasını davam etdirdiyi “Star” neft emalı zavodundakı 76 çənin montajı və test işləri tamamlanıb.

Bu barədə “SOCAR Turkey Enerji A.Ş.” (STEAŞ) məlumat yayıb.

“İllik 10 milyon ton xam neft emal gücü olacaq “Star” neft emalı zavodunda xam neft ilə əsas və ya digər məhsulların saxlanması məqsədilə tikilən ümumilikdə 76 ədəd çənin montajı və test işləri tamamlanıb”, - deyə məlumatda bildirilir.

Qeyd edək ki, gündəlik 34 min kubmetr xam neft emal edəcək “Star” zavodu Türkiyənin illik kəsirini təxminən 1,5 milyard dollar azaldacaq. Zavod bu il test rejimində işləməyə başlayacaq. 2018-ci ilin üçüncü rübündə zavodda istehsal ediləcək məhsulların satışının həyata keçirilməsi planlaşdırılır. Zavodun tikinti işlərinin 96 faizi bitib. “Star” neft emalı zavodu bu ilin dekabr ayından etibarən tam gücü ilə çalışmağa başlayacaq.

Zavodda yerüstü boruların 98 faizinin montajı yekunlaşıb. “Star” hər il 10 milyon ton xam neft emal edəcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu və 160 min ton kükürd istehsal olunacaq.

Xatırladaq ki, “Star” zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub.

# Определены будущие приоритеты молодых ученых UNEC



Ректор UNEC, профессор Адалат Мурадов встретился с членами Совета молодых преподавателей. Ректор, оценивший создание Совета молодых ученых как один из важных шагов, предпринятых в направлении превращения UNEC в университет экономического профиля, подчеркнул важность совершенствования работы совета на очередном этапе. Отметив значительный рост числа опубликованных трудов ученых UNEC в международных научных журналах, А.Мурадов подчеркнул о необходимости увеличения числа исследований, которые могут вызвать особый интерес у общественности. Обратив внимание на Систему дифференциальной заработной платы в UNEC, которая вызвала конкуренцию и расширение научной деятельности среди преподавателей, ректор отметил о постоянной реализации в университете проектов в направлении стимулирования и повышения научного потенциала педагогического состава. Он подчеркнул, что ежегодно молодые преподаватели ведут исследования в авторитетных университетах Европы и Турции, участвуют в научных проектах и сертификации программ. Отметив, что в UNEC оказывают деятельность около 10 исследовательских центров, А.Мурадов говоря о важности формирования специализированных центров по конкретным сферам исследования, отметил, что на очередном этапе будут созданы центры «монетарная экономика» и «экономическая клиника».

На встрече состоялся обмен мнениями в направлении создания благоприятных условий для проведения фундаментальных и прикладных научных исследований. Специализация молодых ученых по конкретной сфере исследования, постоянное совершенствование исследовательских способностей, привлечение у местных и зарубежных доноров грантов исследования были определены как приоритетные направления будущей деятельности совета. В то же время было подчеркнуто о значении использования широких потенциалов молодых ученых UNEC при переводе на азербайджанский язык опубликованных за рубежом новых книг по различным сферам экономики.

# Научное руководство в образовании докторантуры в UNEC: современное состояние и пути совершенствования

Представители Французского университета Монпелье в рамках проекта «НИЗАМИ - вновь создание и развитие образования докторантуры в Азербайджане соответственно требованиям Европейского пространства высшего образования» побывали в UNEC.

В рамках визита проректор университета Монпелье, профессор Франкоис Хенн встретился с профессорско-преподавательским составом UNEC. Выразив удовлетворение по поводу посещения UNEC, гость высоко оценил сотрудничество с этим университетом. Говоря о значении соглашения двойного диплома между UNEC и университетом Монпелье, Ф.Хенн отметил об успешном осуществлении программы. Отметил, что в настоящее время в программе двойного диплома участвуют 17 студентов UNEC.

Гость из Франции рассказал о создании и правилах организации образования докторантуры в Европе, раскрыл финансовые источники. Говоря об определении научного руководителя, профессор отметил о важных условиях, необходимых во время выбора. Подчеркнул о значении подписания соглашения между докторантом и руководителем. Обратив внимание на то, что докторанты должны направить научную деятельность на развитие страны, Ф.Хенн отметил о важной роли рейтинга высших учебных заведений, представляющих качество проведенных научных исследований.

На встрече, в котором состоялся сравнительный анализ образования докторантуры Азербайджана и Европы, был проведен обмен мнениями в направлении совершенствования данной сферы.



# Была организована зимняя школа для участников олимпиады



«Azercell Telecom» продолжает поддерживать развитие образования в нашей стране. На этот раз компания «Azercell» совместно с Министерством образования организовала зимнюю школу для учащихся подготовительных центров, готовящихся к международной олимпиаде по информатике.

В проекте зимней школы, состоявшейся в Центре Инноваций и Предпринимательства Barama «Azercell», приняли участие 20 учащихся из Баку и регионов. Занятия охватили старшую возрастную группу – 10-11 классы, и младшую возрастную группу – 8-9 классы.

На занятиях была дана подробная информация о международных и республиканских предметных олимпиадах и были предоставлены ответы на заданные вопросы. Основной целью зимней школы по информатике является стимулирование процесса подготовки учащихся к олимпиадам, повышение их научно-творческой инициативы, создание условий для демонстрации их научного потенциала, проведение эффективной подготовки ко второму полугодию для способных учащихся, выявленных в результате различных конкурсов. В то же время основной деятельностью в ходе организации зимней школы является еще больше интенсифицировать процесс подготовки к международным олимпиадам, повторять с целью закрепления материалов, пройденных в начале учебного года, и решать новые олимпиадные задания.

# Тренинг для девелоперов на тему «Блокчейн и новые возможности» от компании Bakcell

Первый оператор мобильной связи и ведущий провайдер мобильного интернета в Азербайджане – компания Bakcell продолжает проведение тренингов направленных на профессиональное развитие участников программы AppLab.

Очередной тренинг, проведенный для молодых девелоперов, был посвящен технологии «Блокчейн», являющейся одной из самых обсуждаемых тем современности. В ходе тренинг-сессии, основатели различных İT-проектов, участвующих в программе AppLab поделились своим видением того, как технология Блокчейн может быть применена в местных продуктах и услугах, какие проекты могут быть разработаны и какие проблемы могут быть решены посредством данной технологии.

«Я думаю это совершенно новое поколение интернета, предоставляющее широкие возможности для каждого человека, бизнеса и всего общества в целом. Технология «блокчейн» также способна помочь нам в обеспечении безопасности и защиты личных данных», говорит основатель проекта Blutu Ахмед Халафбейли. «Блокчейн – это основополагающая технология, обладающая потенциалом для заложения основ новых мировых экономических и социальных систем», говорит Орхан Бабаев, менеджер по развитию приложений компании Bakcell. Блокчейн это выстроенная по определённым правилам непрерывная последовательная цепочка блоков (связный список), содержащих информацию. Данная технология является научным достижением, способным оказать влияние не только на такие сферы как финансы и информационные технологии, но и многие другие области.

Программа AppLab это ускоренная модель осуществления проектов, созданная для оказания поддержки выбранным для участия разработчикам, в воплощении в жизнь их идей, мобильных приложений и технологий. В рамках проекта, разработчики имеют возможность работать над своими идеями в центре AppLab, оснащённом столами и комнатами для обучения, бесплатным доступом в интернет, а также передовым оборудованием для разработки и тестирования продуктов.

# Азербайджан может стать частью трансъевропейских сетей ЕС




Как сообщает АЗЕРТАДЖ со ссылкой на Caspian European Club, об этом заявил генеральный директор по транспорту и мобильности Европейской комиссии Хенрик Хололей который принял участие на состоявшемся 30 января в Баку первом CEO Breakfast Baku в качестве почетного гостя.

Поприветствовав гостей CEO Breakfast Baku, он отметил: «Азербайджан является частью европейской семьи, поэтому для нас очень важно обеспечить более глубокое взаимодействие с ЕС. Только тогда мы сможем раскрыть полный потенциал всех предприятий и еще больше сблизить наших граждан. Мы полны решимости осуществить это посредством углубленного авиационного соглашения, тесного морского сотрудничества, что позволит Азербайджану стать частью трансъевропейских сетей ЕС».

Главный исполнительный директор Caspian European Club Мустафа Аббасбейли сообщил, что отныне CEO Breakfast Baku будет проводиться ежемесячно. «На мероприятиях формата CEO Breakfast будет организовано неформальное общение между топ-менеджерами компаний-членов Caspian European Club и руководителями государственных структур, представляющих экономический блок не только Азербайджана, но и других стран», - продолжил он.

Первый заместитель председателя Caspian European Club Тельман Алиев напомнил, что Caspian European Club был создан в июне 2002 года при поддержке крупнейших нефтегазовых компаний, работающих в Каспийско-Черноморском регионе. Председателем Caspian European Club является Президент Азербайджанской Республики Ильхам Алиев.

С момента создания Caspian European Club способствует привлечению доходов от нефтяной отрасли на развитие ненефтяного сектора. Caspian European Club, объединяющий в своих рядах свыше 5000 компаний и организаций, работает в 70 странах мира, ведет активную работу по поддержке диалога между государственными структурами и частным сектором.

В мероприятии приняли участие члены правления Caspian European Club, топ-менеджеры, руководители крупных транспортных компаний и членов Caspian European Club.

# Азербайджан вошел в число самых доступных направлений для российских туристов

Азербайджан вошел в десятку самых доступных туристических направлений для российских туристов, следует из рейтинга одного из крупнейших порталов для поиска авиабилетов и отелей Skyscanner.

Согласно рейтингу, двухнедельная поездка на двоих в Азербайджан обойдется российским путешественникам в 1 616 долларов (426 долларов из них составит стоимость перелета). Таким образом, Азербайджан занял шестое место среди 23 стран.

“Flame Towers, Храм огнепоклонников Атешгях, горящая гора



Янардаг и огненные коктейли в панорамном ресторане 360 Bar Hilton Baku — это далеко не все вещи, которыми удивляет Страна Огней. Прилетайте в Азербайджан делать селфи на фоне музея ковра, разгадывать древние наскальные ребусы в Гобустане и любоваться традиционным и современным искусством в футуристичном Культурном центре Гейдара Алиева. А еще — принимать нефтяную ванну в Нафталане, покорять горы в Гусарском районе и покоряться местной кухне в Шеки”, - отмечают авторы рейтинга.

Эксперты Skyscanner подсчитали, что средний дневной бюджет на двоих в Азербайджане составит 85 долларов. Из этой суммы около 35 долларов уйдут на расходы на жилье, 32 доллара - на питание и 18 долларов - на развлечения.

Поездка и пребывание в Азербайджане оказались дешевле, чем отдых в Венгрии, Казахстане, Польше, Вьетнаме, Болгарии, Португалии, Черногории и других странах.

Дешевле всего из России путешествовать в Беларусь. Общий бюджет поездки составит 1 358 долларов. В тройку лидеров также вошли Молдова (1 365 долларов) и Абхазия (1 498 долларов).

Самым дорогим направлением для российских туристов стали Таиланд (2 134 долларов), Кения (2 335 долларов) и Куба (2 755 долларов).

# KİV əməkdaşlarına mənzillərin açarları təqdim olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə jurnalistlər üçün inşa edilmiş ikinci binadan mənzil almış kütləvi informasiya vasitələri əməkdaşlarına yanvarın 30-da açarların təqdim edilməsi mərasimi keçirilib.
Beynəlxalq Mətbuat Mərkəzində keçirilən tədbirdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli, Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, eləcə də mənzillə təmin olunmuş KİV əməkdaşları iştirak ediblər.






Fondun icraçı direktoru Vüqar Səfərli tədbir iştirakçılarını salamlayaraq, jurnalistlər üçün inşa edilmiş ikinci binanın 2017-ci ilin iyul ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə təntənəli açılış mərasiminin keçirildiyini xatırladıb. İcraçı direktor ötən müddətdə binanın istismara verilməsi üçün zəruri sənədləşmə işlərinin başa çatdırıldığını, bu tədbirdə mənzillərin açarlarının və kommunal xidmət sahələri ilə bağlı sənədlərin sahiblərinə təqdim olunacağını vurğulayıb. Mənzillərin artıq yaşayış üçün tam hazır olduğunu deyən Vüqar Səfərli bu münasibətlə jurnalistləri təbrik edib. İcraçı direktor dünyada analoqu olmayan belə nəcib təşəbbüsə görə çoxsaylı KİV əməkdaşları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib.
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov jurnalistlərə təbriklərini çatdıraraq, dövlətimizin başçısının ölkəmizdə mətbuata və jurnalistlərə daim yüksək diqqət və qayğı göstərdiyini vurğulayıb. Son illər bəzi qərəzli jurnalistlərin Azərbaycanda media siyasətinin "iflasa uğraması" barədə əsassız fikirlərlə çıxış etdiklərini təəssüf hissi ilə qeyd edən Əli Həsənov həmin şəxslərin Avropanın müəyyən mərkəzləri tərəfindən ayrılan qrantlar aldıqlarını və onların maraqlarına xidmət etdiklərini bildirib. Bu günlərdə həmin jurnalistlərin TAP layihəsi əleyhinə Avropada təşkil edilən aksiyalarda iştirak etdiklərini deyən Əli Həsənov bütün bu əməllərə jurnalistlərimizin layiqli cavab verməli olduqlarını deyib.
Əsası "Əkinçi" qəzeti ilə qoyulan Azərbaycan mətbuatının sağlam təməl üzərində inkişaf etdiyini bildirən Prezidentin köməkçisi deyib ki, media sağlam cəmiyyət formalaşdırmalı, vətəndaşlarda vətənə, dövlətə məhəbbət hissi aşılamalıdır.
1998-ci ildə ulu öndər Heydər Əliyevin Fərmanı ilə mətbuat üzərində nəzarətin tamamilə ləğv edilməsinin Azərbaycanda azad medianın inkişafında mühüm rol oynadığını deyən Əli Həsənov bildirib ki, Prezident İlham Əliyev hakimiyyətinin ilk günlərindən ümummilli liderin mətbuata qayğı siyasətini uğurla davam etdirir.
Prezidentin köməkçisi deyib ki, bu gün Azərbaycanda media ilə münasibətlər şəffaf şəkildə - Azərbaycan Mətbuat Şurası vasitəsilə nizamlanır. Azərbaycan dünyada yeganə ölkədir ki, jurnalistlər üçün dövlət vəsaiti hesabına mənzillər tikilib onların istifadəsinə verilir: "Dövlətimizin başçısı Davosdakı müzakirələrdə də Azərbaycanda internetin, mətbuat azadlığının, siyasi fəaliyyət azadlığının tam şəkildə təmin olunduğunu bəyan etdi. Bu gün Azərbaycanda yazılı mediaya da yüksək qayğı göstərilir. Çünki yazılı media hər bir ölkənin salnaməsini yaradır. Bu gün ölkəmizdə yazılı media Azərbaycan cəmiyyətinin müxtəlif sahələrdə zəngin irsinin qorunmasına xidmət edir. Məhz bu baxımdan Azərbaycanda da yazılı mediaya diqqət göstərilir". Bildirilib ki, 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması ilə Azərbaycanda mətbuata dövlət qayğısının şəffaf şəkildə həyata keçirilməsinə imkan verən mexanizm formalaşdırılıb.
2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini, həmçinin bu il növbəti prezident seçkilərinin keçiriləcəyini xatırladan Əli Həsənov deyib ki, KİV nümayəndələri bununla əlaqədar təşkil olunacaq tədbirlərdə, ölkəmizin uğurlarının təbliğində, eləcə də prezident seçkilərində yüksək fəallıq nümayiş etdirəcək, jurnalistlərin dostu olan dövlətimizin başçısının ətrafında sıx birləşəcəklər.
Sonda mənzillə təmin olunmuş KİV əməkdaşlarına açarlar təqdim edilib.

# "Standard&Poor's": növbəti 4 ildə Azərbaycanın ümumi daxili məhsulu 3,3 faiz artacaq

Növbəti 4 ildə Azərbaycanın ümumi daxili məhsulunun artımı orta hesabla 3,3 faiz təşkil edəcək.
Bu barədə "Standard&Poor's" beynəlxalq reytinq agentliyinin hesabatında deyilir. Agentlik Azərbaycanın xarici və yerli valyutada qısa və uzunmüddətli suveren kredit reytinqini "BB+/B" səviyyəsində təsdiqləyib.




Hesabatda xarici valyuta ehtiyatlarının artması, büdcənin profisitlə icra olunacağının proqnozlaşdırılması və ölkənin iqtisadi inkişaf göstəricilərində gözlənilən artım reytinq üzrə proqnozun yaxşılaşdırılmasında əsas səbəblər kimi göstərilib.

# Reklam elanlarının bədii tərtibatı

**(əvvəli 2 (997) sayımızda)**

Bəzi müəssisələr özləri üçün hər şeyi əhatə edən üslub işləyib hazırlayırlar. Bu zaman firmanın istehsal etdiyi hər şeydə - onların tətbiq etdiyi qablaşdırma növlərində, ekspozisiyaların, sərgilərin tərtibində dizaynın bütün elementlərindən istifadə olunur.
**İstifadə olunan şriftlər.** Bütün şriftlər dörd əsas qrupa bölünür:
**1. Əsas mətnin yığılması üçün uyğun gələn şriftlər** - onları hətta xırda keql ilə sıx çap zamanı asanlıqla oxumaq olar.
**2. Klassik şəkilli şriftlər** başlıca olaraq birbaşa Roma hərfləri əsasında işlənib hazırlanır. Xırda keqldən olan belə şriftlərdən bəzən əsas mətnin yığılması üçün istifadə olunur. Daha iri keqllərdən və daha yağlı variantlardan tanınma məqsədi ilə istifadə olunur, bu zaman nüfuzluluq və rəsmiyyət təəssüratına nail olmaq olar.
**3. Tanınma şriftləri** sərlövhələrin, yarımsərlövhələrin və ya ayrı-ayrı vurğulu sözlərin yığılması üçün nəzərdə tutulmuşdur. Çoxsaylı belə şriftlər mövcuddur ki, onlardan ən müxtəlif ideyaların və əhval-ruhiyyələrin ötürülməsi və təlqin edilməsi üçün istifadə oluna bilər.
**4. Dekorativ şriftlər** o qədər təmtəraqlı, dəbdəbəli və ibarəlidir ki, onların istifadə edilməsini bir neçə sözlə məhdudlaşdırmaq lazımdır. Lakin bəzən bu hallarda onlar onsuz da oxumanı çətinləşdirir.
Yaddan çıxarmaq lazım deyil ki, hansı şriftdən istifadə edilməsindən asılı olmayaraq, yığılan söz ilk baxışdan asanlıqla oxunmalıdır.
**Çap üsulları.** İstifadə olunan illüstrasiyaların effekti və şriftlərin oxunaqlığı bir çox hallarda seçilmiş çap üsullarından asılıdır.
Ən keçmiş və daha çox yayılan üsul **yüksək çap üsuludur,** bu zaman mətbəə boyası relyef cəhətdən görünən təsvirlə metal səthin üzərinə çəkilir. Müəyyən təzyiq zamanı bu təsvir kağıza sıxılır və bunun üzərinə boya köçürülür. Mətn metal literdən (tökmə hərfdən) ibarət tərkibli yığımdan çap olunur. İllüstrasiyaların çap olunması üçün metal klişenin (çap üçün metal və ya taxta parçası üzərində tərsinə qazılmış şəkil), yaxud basma qəlibin hazırlanması tələb olunur.
**Dərin çap** hərəkət prinsipinə görə yüksək çapın əksinədir. Onun çap olunan elementləri dərinləşmişdir, yəni çap olunan formanın səthi çap olunmayandır. Çap olunmamışdan əvvəl boya bütün forma üzərinə çəkilir, sonra isə onun səthindən yığılır və yalnız liter və klişenin konfiqurasiyasına malik olan dərinlikdə, yaxud oyuqda qalır. O, illüstrasiyalı mətnlərin, rəngli plakatların, açıqcaların çap edilməsi üçün tətbiq olunur.
**Yastı və ya səthi çap** zamanı təsvir kimyəvi tərkibdə emal edilmiş nazik metal plastina (lövhə) ilə kağızın üzərinə köçürülür, beləliklə, bir sahəyə boya yapışır, digər sahəyə yapışmır. Belə bir kimyəvi emal nəticəsində çap olunmayan elementlər nəmləşir və yalnız çap elementlərində daha yağlı mətbəə boyasına uyuşmaz olur. Yastı və ya səthi çap çoxboyalı məhsulun hazırlanması zamanı istifadə olunur.
**Ofset çapı** zamanı plastina ilə kağız arasında ofset lenti (layı) yerləşir. Yastı və ya səthi çap üçün formalar həm mətn hissəsinin, həm də illüstrasiyaların quraşdırılıb keçirildiyi orijinal maketdən fotoüsulla hazırlanır. Fotoyığımdan istifadə olunması bədii tərtibatın quraşdırılmasının operativliyini və məhsuldarlığını kəskin surətdə artırır.
**Termoqrafiya** relyef yazılarının və təsvirlərin kağız səthlərinə çəkilməsi üçün istifadə olunan istilik prosesidir. Əsasən, blankların hazırlanması zamanı tətbiq olunur.
**Şelkoqrafiya** əyri səthlərdə və ölçülü obyektlərdə çap üçün tətbiq olunur. Bəzən reklam-kommersiya ədəbiyyatının buraxılışı zamanı ondan istifadə edilir.
**Təsvir reklam vasitəsi kimi.** Təsvir mətnə vizual əlavədir və ya reklamın müstəqil elementidir.
Təsvirin vəzifələrinə aiddir:
-diqqəti cəlb etmək;
- maraq doğurmaq;
- əmtəənin (malın) xarici görünüşünü və onun üstünlüklərini nümayiş etdirmək;
-mətni daha yaddaqalan etmək, reklam olunan məhsulun vizual surətini yaratmaq.
Təsvir aşağıdakı formalarda yerinə yetirilə bilər:
- fotoşəkil;
- şəkil (rəsm şəkili, qrafika);
- kinosüjet və s.

(davamı var)

**F.M.Qarayev,**
**BDU-nun dosenti**




Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500